# QARABAĞ AZƏRBAYCANDIR!

## Suriyalı professor: "Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycan xalqı şər qüvvələrə qalib gəldi"



7

## "Dəmir Yumruq" siyasəti və Laçının qayıdışının iki ili

SƏS
№ 221 (6662) 2 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

PREZİDENT İLHAM ƏLİYEV: "Bir güllə atmadan biz Laçın rayonunu qaytardıq"




8

# Prezident yenə qiymətləndirdi -

# BAŞ REDAKTOR YAZIR



3

Azərbaycan bu gün hər bir vətəndaşın qürur duyduğu Vətəndir. Bu Vətən uğrunda xalq əsrlərlə maneəli yollardan keçmiş, mübarizə və mücadilələr aparmış, sonda müstəqilliyin sahibi olmuş, müstəqil ölkənin vətəndaşlarına çevrilmişdir.

## Tullantıların təkrar emalının müsbət cəhətləri nədir?



10

## "Fransa, əslində, radikal separatizmi dəstəkləyir"



11

## Laçın dəhlizindən çıxan görünməyən tüstü




14

## İran-Rusiya-Qarabağ: qırmızı xətt keçildi!!!




12

## Qiçs: dünyada və Azərbaycanda vəziyyət



15





# Azərbaycan etibarlı strateji tərəfdaşdır!

## Prezident İlham Əliyev:

### "Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir"

Azərbaycanın dünya dövlətləri ilə iqtisadi, mədəni, siyasi və digər sahələrdə münasibətlərinin sıxlaşması əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Serbiya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib və strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlir. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji və digər sahələrdə yeni prespektivlərə yol açmışdır. Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında ikitərəfli diplomatik münasibətlər davamlı olaraq həyata keçirilir. 2011-ci il tarixində Azərbaycanın Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri olub. Səfər çərçivəsində Serbiyada Azərbaycan səfirliyi açılıb. Azərbaycan hər zaman beynəlxalq təşkilatlarda Serbiyanı dəstəkləyib və ölkələrimizdə səfirliklərin açılması da ikitərəfli əməkdaşlığa öz mühüm töhfələrini verir. 2013-cü ildə Azərbaycan və Serbiya arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə, eləcə də 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı əhəmiyyət kəsb edir. Dövlətlərarası strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr ildən-ilə genişlənir.

Əlbəttə ki, ikitərəfli əlaqələrin daha da geniş miqyas alması üçün potensial böyükdür. 21-22 may 2018-ci il tarixlərində Serbiya Prezidenti Aleksadar Vuçiçinin Azərbaycana rəsmi səfəri mövcud əlaqələrin davamı kimi dəyərləndirilir. 3-6 aprel 2018-ci il tarixlərində isə Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Daha sonra 21-26 oktyabr 2019-cu il tarixlərində Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji sahələrində yeni prespektivlərə yol açmışdır.

Onu da vurğulamaq yerinə düşər ki, parlamentlərarası əlaqələr də mövcuddur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Azərbaycan-Serbiya əlaqələrindən söz açarkən Azərbaycan və Serbiyanın şəhərlərində iki ölkənin xalqlarının görkəmli şəxsiyyətlərinin xatirəsinə ucaldılmış abidələri də qeyd etməliyik. Prezident İlham Əliyevin Serbiyaya səfəri zamanı bu ölkədə Ulu Öndər Heydər Əliyevin və böyük bəstəkar Üzeyir Hacıbəylinin abidələri açılıb. 2013-cü il fevralın 8-də isə Bakının mərkəzində serb xalqının görkəmli alimi Nikola Teslanın abidəsinin açılışı olub. Abidənin açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin söylədiyi kimi, artıq bu yer Serbiya-Azərbaycan dostluğu parkıdır. Serbiya və Azərbaycan xalqlarının görkəmli nümayəndələrinin şərəfinə həm Serbiyada, həm də Azərbaycanda ucaldılmış abidələr xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir. Bu əlamətdar hadisələr Serbiya-Azərbaycan dostluğunun təzahürüdür. Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Serbiya Baş nazirinin müavini, mədən və energetika naziri Zorana Mixayloviçin ölkəmizə səfəri çərçivəsində 2022-ci il iyunun 1-də Bakı şəhərində imzalanan ”Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair Saziş” əlaqələrin davamlılığına əsaslanır.

### ”BİR ÇOX SAHƏLƏRDƏ UĞURLA ƏMƏKDAŞLIQ EDİRİK VƏ BİZİM ƏMƏKDAŞLIĞIMIZIN STRATEJİ HƏDƏFLƏRİ VAR”

Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri çərçivəsində dövlət başçıları vacib məsələləri müzakirə edib və bir sıra sənədlər imzalanıb. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Sözsüz ki, rəsmi görüş və sənədlərin imzalanması əlaqələrin daha da genişlənməsinə yeni imkanlar açır. Belə ki, dövlət başçıları Birgə Bəyanat, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Memorandumu imzalayıblar. Bu sənədlərin imzalanması əməkdaşlığın yeni müstəviyə qalxması deməkdir. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər. Bəyanatla çıxış edən Prezident İlham Əliyev dövlətlərarası imzalanmış sənədlərin ikitərəfli əlaqələrin hüquqi bazasını təşkil etdiyini və və onların arasında, strateji tərəfdaşlıq haqqında sənədlərin xüsusi yer tutduğunu bildirib:”Biz sözün əsl mənasında strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var.Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir”.

Cənab Prezident çıxışında 30 ilə yaxın işğal altında olan torpaqlarımızın sülh yolu ilə həlli istiqamətində uzun illər danışıqlar aparılsa da, nəticə vermədiyini diqqətə çatdırıb: ”Dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər. Onların arasında, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılması tələb edilirdi. BMT-nin Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmırdı. Bu nəyi göstərir? Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri, onların icrası selektiv xarakter daşıyır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir, bəzi hallarda isə bir neçə saat ərzində icra edilir. Amma bizim məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözləyirdik və buna nail ola bilmədik”.

### ”BİZ DOST OLAN ÖLKƏLƏRLƏ BU SAHƏDƏ VƏ BÜTÜN BAŞQA SAHƏLƏRDƏ ƏMƏKDAŞLIĞI DƏRİNLƏŞDİRMƏK FİKRİNDƏYİK”

Dövlət başçısı deyib ki, dünya ictimaiyyəti beynəlxalq təşkilatların gələcək fəaliyyəti ilə bağlı öz təkliflərini verməlidir: ”Çünki qəbul edilmiş qərarlar əgər həyatda öz əksini tapmırsa, yerinə yetirilmirsə, əlbəttə ki, bu, çox düşündürücüdür. Biz nəticə etibarilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik”. Azərbaycan 44 günlük Vətən müharibəsində öz əzəli torpaqlarını işğaldan azad etdi və ədalət bərpa olundu. Bu gün isə işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri aparılır. ”Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini - 10 min kvadratkilometrdən böyük olan ərazini yenidən qurur”, - deyə Azərbaycan Prezidenti bildirib.

Qeyd edək ki, səfər çərçivəsində enerji sahəsində əməkdaşlığın aparılması, elektrik enerjisi sahəsində, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələlər və s müzakirə olunub. ”Təbii qaz, elektrik enerjisi sahələrində əməkdaşlıq üçün yeni imkanlar var” - deyən Cənab Prezident Azərbaycanın zəngin qaz resurslarının bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynadığını bildirib: ”Əlbəttə ki, ilk növbədə, biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik. O cümlədən hərbi-texniki sahədə əməkdaşlıq aparılır və bu əməkdaşlığın daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımlar atılacaqdır”.Əlbəttə ki, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində dost ölkələr, eləcə də Serbiya şirkətləri də fəal iştirak edəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Prezident yenə qiymətləndirdi - BAŞ REDAKTOR YAZIR



**Azərbaycan bu gün hər bir vətəndaşın qürur duyduğu Vətəndir. Bu Vətən uğrunda xalq əsrlərlə maneəli yollardan keçmiş, mübarizə və mücadilələr aparmış, sonda müstəqilliyinin sahibi olmuş, müstəqil ölkənin vətəndaşlarına çevrilmişdir.**



***Bəhruz Quliyev***
***"Səs" qəzetinin Baş redaktoru, Fəlsəfə üzrə fəlsəfə doktoru***

Müstəqilliyimiz isə tariximizin şanlı səhifələrini təşkil edir. Bu səhifələrdə 30 ildən çox şanlı bir tarix, müstəqillik uğrunda canından keçənlər, azadlıq yolunda şəhid olanlar, bu ölkənin inkişafı, tərəqqisi üçün həyatını fəda edənlər, bütün maneələrə baxmayaraq müstəqilliyi qoruyub saxlaya, əbədiləşdirə bilənlər yaşayır. Bütün bunlar tariximizin səhifələrinə qızıl hərflərlə həkk olunub.

Ölkəmizdə 30 il bundan əvvəl yaradılan Yeni Azərbaycan Partiyası isə o zamankı sosial-iqtisadi tənəzzül yaşayan, müstəqilliyi təhlikə altında olan Azərbaycanın ictimai-siyasi həyatında böyük əhəmiyyətə malik bir partiya oldu. Lideri Ulu Öndərimiz olan partiyanın fəaliyyəti zaman-zaman Azərbaycanın dirçəldilməsi, iqtisadiyyatının gücləndirilməsi, müstəqilliyinin qorunması ilə nəticələndi. 30 il əvvəl Ermənistanın əsassız ərazi iddiaları irəli sürməklə torpaqlarımızı işğal etməsi və xalqın 30 il sonra əzəli yurd yerlərini azad etməsi də Yeni Azərbaycan Partiyasının davamçılarının və partiya ətrafında sıx birləşən azərbaycanlıların - ictimai həyatımızın fəal üzvlərinin əməyinin, zəhmətinin bəhrəsidir.

### Dövlət başçısından insan amilinə verilən dəyərlə bağlı növbəti üç Sərəncam

Ölkəmiz bütün dünya ölkələri arasında fərqli keyfiyyətlərə malikdir. Onlardan biri və ən başlıcası insan amilinə verilən dəyərdir. Son 30 ildə ölkəmizdə həyata keçirilən bütün işlərin əsasında insan amili dayanır. Dövlət-xalq birliyinin əsasında formalaşan müstəqil respublikamızda insanların əmin-amanlıq şəraitində yaşaması, rifah halının yüksək olması dövlət siyasətinin əsas prioriteti olub.

Çalışdığı sahədə zəhməti ilə fərqlənənlərin əməyinin dəyərləndirilməsinin də əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoymuşdur. Bunu böyük şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə müşahidə etmişik. Fəxri adların, digər dövlət mükafat və təltiflərin verilməsi insanların əməyinin qiymətləndirilməsi baxımından onların fəaliyyətlərini daha mükəmməl şəkildə qurmaları, ölkəmizin inkişafına töhfələri ilə nəticələnmişdir.

Azərbaycan Prezidentinin insan amilinə verilən dəyərlə bağlı imzaladığı üç Sərəncamla yenə Azərbaycan vətəndaşlarının bir qrupunun əməyinin dəyənləndirilməsi ölkəmizdə illər öncə yaranan bu ənənənin davamıdır. Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 2022-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərə "Əməkdar jurnalist" fəxri adının və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında", "Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin təltif edilməsi haqqında" və "Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında" sərəncamlarla ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı ilə fərqlənən hər yaş qrupundan olan ümumilikdə 68 nəfərin təltif edilməsi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Təltif olunanları təbrik edir və onlara verilən bu dəyəri hər bir Azərbaycan vətəndaşına verilən dəyər kimi qiymətləndiririk. Çünki ümumilikdə ölkəmizdə insan amilinə verilən dəyəri vətəndaşların hər biri ayrı-ayrı vaxtlarda öz həyatlarında da müşahidə edirlər.

### Heç kim unudulmur, diqqətdən kənarda qalmır

Məlum üç sərəncam həm də onu təsdiqləyir ki, ölkə həyatında fəallığı, zəhməti ilə seçilən heç kim unudulmur, diqqətdən kənarda qalmır. Çünki qədirbilənlik, layiq olan hər kəsi qiymətləndirmək xalqımızın milli dəyərlərindən biridir. Bu dəyərlər zaman-zaman nəsillərdən-nəsillərə keçməklə yaddaşlarımıza həkk olunub. Və buna görə də xalqın var olması, onun inkişafı, gələcəyi üçün əmək sərf edənlər dövlətimizin diqqət-qayğısı ilə əhatə olunur.

Bu gün ölkəmizdə elə bir sahə yoxdur ki, həmin sahədə fədakarlıq göstərən insanların əməyi qiymətləndirilməsin. İstedadı ilə fərqlənən uşaqlardan tutmuş gənc idmançılarımıza, musiqiçilərimizə, müəllim, həkimlərimizə, mühəndislərimizə və adını çəkmədiyimiz digər sənət və peşə adamlarınadək hər kəs diqqətdədir. Onların işinə göstərdiyi məsuliyyəti və bunun sayəsində cəmiyyətimizə töhfələri daim diqqət mərkəsindədir və yeri gələndə də qiymətləndirilir.

Bütün bunlar isə ölkəmizə dövlət-xalq birliyinin möhkəmlənməsi, gələcəyimiz olan uşaqların bu ənənələr əhatəsində böyüməsi, vətənpərvər gənclərin yetişməsi kimi töhfələr verir. Elə bu ruhun, birliyin, həmrəyliyin nəticəsidir ki, son 20 ildə ölkəmizdə vətənpərvər gənclər tərbiyə olundu. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında onların hər biri böyük fədakarlıq nümayiş etdirdilər.

*Ardı Səh. 4*

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə qərara alıram:

1. Aşağıdakı şəxslərə "Əməkdar jurnalist" fəxri adı verilsin:
Əliyev İlham Yaylaqalı oğlu
Musayev Alqış Həsən oğlu.
2. Aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:
Xəlilov Zahid Abdulla oğlu
Şadlinski Vaqif Bilas oğlu
Vəliyev Misirxan İzzət oğlu.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 noyabr 2022-ci il***

* * *

## Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə aşağıdakı şəxslər təltif edilsinlər:

2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
Rəhimzadə Vüqar Gəncəli oğlu
3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
Əzizov İbrahim Vahab oğlu
Hüseynov Vaqif Aslan oğlu
Qasımov Elmar Eldar oğlu
Məmmədov Hikmət Baba oğlu
Vəliyev Fəxrəddin Vəli oğlu
Zabelin Mixail Yuryeviç
"Tərəqqi" medalı ilə
Abasov Emil Tofiq oğlu
Abbasov Eldar Şamxal oğlu
Abdullayev Arzu Kamal oğlu
Abdullayeva Təranə Savalan qızı
Ağasıyev Şahmurad Şahvələd oğlu
Ağayev Cəmaləddin Moqbil oğlu
Ağayev Vahid Müzəffər oğlu
Baxışov Hüseynağa Eynulla oğlu
Bayramov Məzahir Əhməd oğlu
Bədəlova Ramilə Alxan qızı
Cahangirov Tofiq Şahmur oğlu
Ələkbərov Əziz Yusif oğlu
Əlipaşayeva Solmaz Məmməd qızı
Əliyev Əlimərdan Ələkbər oğlu
Heydərov İbrahim Əli oğlu
Həşimova Almaz Ələkbər qızı
Hüseynov Aydın Nəsir oğlu
Hüseynov Elçin Məmməd oğlu
Hüseynova Sevinc Əmirəhməd qızı
İbramxəlilov David Nurəddin oğlu
İmanov Mobil Qulu oğlu
İsmayılov Hüseyn Abbas oğlu
İsmayılov Vüsar Qəşəm oğlu
Kərimov Elmar Hacı oğlu
Qarayev Əhliman Paşa oğlu
Qasımova Gülnarə Vaqif qızı
Qurbanov Sadiq Haqverdi oğlu
Qurbanov Vahid Həsən oğlu
Məmmədli Hülya Gündüz qızı

*Ardı Səh. 4*

# Prezident yenə qiymətləndirdi - BAŞ REDAKTOR YAZIR

Əvvəli Səh. 3

Dövlətimizin başçısı, Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan şanlı Zəfərimizə bu gənclər öz adlarını qızıl hərflərlə yazdılar. Bütün döyüşlərdə, xüsusilə də Şuşa şəhərinin azad olunması uğrunda gedən əlbəyaxa döyüşlərdə qəhrəmanlıq və şücaətlərini dəfələrlə vurğulayan cənab Prezident İlham Əliyev onların qəhrəmanlığını, fədakarlığını yüksək dəyərləndirir.

Bəli, ölkəmizdə son 20 ildə insanlara bu cür münasibətin formalaşdırdığı nümunəvi cəmiyyət güclü dövlətdən, inkişafdan və xalqın xoşbəxt gələcəyindən xəbər verir. Bu birlik, qarşılıqlı münasibətlər, həmrəylik onu təsdiqləyir ki, həqiqətən də liderlik böyük təcrübə, bacarıq və qabiliyyət tələb edir. Biz isə Azərbaycan xalqı olaraq qürur duyuruq ki, bu keyfiyyətlərə sahib olan liderin rəhbərlik etdiyi ölkədə yaşayırıq.

### Sosial qayğı dövlətin əsas prioritetidir

30 noyabrda Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə dövlət başçısının imzaladığı sərəncamların fonunda 30 ilin həm o, həm də bu başında Vətən, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Birinci və İkinci Vətən müharibəsi şəhidləri və qaziləri, onlara göstərilən diqqət və qayğı da canlanır. Və bütün bunları xatırlatmaqda məqsədim dövlətin hər bir vətəndaşına göstərdiyi qayğını vurğulamaqdır. Biz bu qayğının ən böyüyünü 44 günlük Vətən müharibəsi zamanı və ondan sonra ötən iki ildə görməkdəyik.

Müharibə dövründə cənab İlham Əliyevin yaralı zabit və əsgərlərlə keçirdiyi görüşlər, onların müalicə olunması üçün verdiyi tapşırıqlar müharibənin o şiddətli dövründə ölkə rəhbərinin həssas münasibətini və ölkə vətəndaşına verdiyi dəyəri təcəssüm etdirirdi.

Həm birinci, həm də ikinci Qarabağ müharibəsində şəhid olan qəhrəman oğulların ailə üzvlərinə qayğı isə hər kəsin gözü önündə həyata keçirildiyi üçün insanlara nümunə və tərbiyə gücündə təsir edir. Vətən Müharibəsindən dərhal sonra şəhid ailələrinin sosial şəraitini yaxşılaşdırmaq üçün onlara mənzillərlə, birdəfəlik ödənişlərin təqdim olunması, qazilərin bütün qayğılarının diqqətdə saxlanılması, onların müalicəsinin yüksək səviyyədə təşkil edilməsi müharibədən yenicə çıxmış bir ölkədə insan amilinin bütün məsələlərdən önəmli olduğunu təcəssüm etdirir.

Nəinki ikinci, bririnci Qarabağ müharibəsi iştirakçılarına qayğı isə onun bariz göstəricisidir ki, Vətən üçün canından, sağlamlığından keçən hər bir insan bu dövlət üçün dəyərli və unudulmazdır.

### Əhalinin rifahı və güclü dövlət prinsipi

Noyabrın 30-da imzalanan və Azərbaycan ictimai mühitində razılıqla qarşılanan sərəncamlardan yola çıxaraq son 20 ilə yaxın dövrdə ölkə həyatının bütün sahələrinə nəzər saldıqda açıq görünür ki, dövlət siyasətinin əsasında əhalinin rifahı və güclü dövlət prinsipi dayanır. Bunu ölkə başçısının gündəlik iş fəaliyyətində də görmək olur, gələcəyə hesablanmış pnevmatik addımlarında da.

Bütün dünyada müharibələrin, iqtisadi tənəzzülün tüğyan etdiyi bir dövrdə Azərbaycan kimi Zəfərli ölkədə yaşamaq bəli, hər bir vətəndaşın qürurudur. Qonşu və region dövlətlərlə müqayisədə əhali rifahı üçün ölkəmizdə görülən işlər isə nümunə səviyyəsindədir. Bu isə 30 ilin əvvəlində yaranan, bu gün yaranmasının 30 ili tamam olan Yeni Azərbaycan Partiyasının siyasi irsinin öyrənilməsinin və layiqincə davam etdirilməsinin, böyük Heydər Əliyev ideyalarının yüksək səviyyədə həyata keçirilməsinin göstəriciləridir. Ölkə başçısının Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə çıxışının bütün istiqamətlərində Heydər Əliyev ideyalarına əsaslanaraq görülən işlərdən söhbət açması təbii ki, bu təməlli siyasətin ardıcıl şəkildə həyata keçirilməsinin bugünkü müstəqil, sürətlə inkişaf edən, güclü Azərbaycan yaranması ilə nəticələnəcəyini şərtləndirən amillər idi.

Prezident İlham Əliyevin bu dəyərli fikirləri Azərbaycanın bu günü və gələcəyi haqqında təsəvvür yaratmaq üçün kifayətdir: Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar. Haqqında bəhs edilən Sərəncamları təqdim edirik.

### Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərə ”Əməkdar jurnalist” fəxri adının və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

Əvvəli Səh. 3

Məmmədov Anar İlyaz oğlu
Məmmədov Arif Şollan oğlu
Məmmədov Tahir Tais oğlu
Musayev Musa Həzi oğlu
Musayeva Zəkiyyə Balağa qızı
Nağıyev Muxtar Teymur oğlu
Nəbiyev Bəxtiyar Eyvaz oğlu
Nəsirov Elman Xudam oğlu
Nuriyev Yaşar Sövqat oğlu
Osmanov Cavid Həmid oğlu
Ramazanova Rahilə Mustafa qızı
Rəhimova Lalə Ovçu qızı
Sefiyev Valeh Şulu oğlu
Simanduyev Yavuşva Donoviç
Soltanov Rafael Nəsir oğlu
Süleymanov Azər Abdul oğlu
Şadlinskaya Faqət Nəcəb qızı
Şükürov Sahib Yunis oğlu
Tağıyev Əhliman Safalan oğlu
Vəlibəyov Ramil Vaqif oğlu
Vəliyev Bilman Məhərrəm oğlu
Yolçiyev Meydanəli Binəli oğlu.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 noyabr 2022-ci il*

* * *

### Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə aşağıdakı şəxslər ”Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin:

Əliyev Pənah Əli oğlu
İbrahimov Eldar Rza oğlu
Quliyev İsgəndər Həsən oğlu
Məmmədhəsənov Rafiq Musa oğlu
Nəsirov Məmməd Yahya oğlu.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 noyabr 2022-ci il*

# Rusiya XİN-dən diqqətçəkən bəyanatlar

## Sergey Lavrov: "Ermənistan rəhbərliyi son günlər statusdan daha çox Qarabağ ermənilərinin hüquqlarından danışmağa başlayıb"

Rusiyanın xarici işlər naziri Sergey Lavrov diqqət çəkən bəyanatlarla çıxış edib. SİA xəbər verir ki, onun mətbuat konfransı keçirərək orada irəli sürdüyü fikirlərinə görə, Ermənistan rəhbərliyi son günlərdə Qarabağ ermənilərinin hüquqları barədə danışmağa başlayıb ki, nəinki status haqqında. Onun sözlərinə görə, Azərbaycan Qarabağ ermənilərinə bütün hüquqları verməyə hazırdır. ”Azərbaycan ölkənin digər vətəndaşları kimi Qarabağ ermənilərinə də hüquqları ilə bağlı zəmanət verməyə hazırdır”, deyə Rusiyanın xarici işlər idarəsinin başçısı bəyan edib.

### ”Paris və Vaşinqton rəsmi olaraq bəyan etdilər ki, Rusiya ilə heç bir formatda əməkdaşlıq etməyəcəklər”

Lavrov artıq tarixin arxivinə atılmış ATƏT-in Minsk qrupu ilə



bağlı da ilginc fikirlər səsləndirib. O, qeyd edib ki, əslində bu qrupu dəfn edən fransızlarla amerikalılar olublar: ”Bizdə onlarla bağlı heç bir problem olmayıb. Xüsusi hərbi əməliyyatlar (Ukraynada) başlayandan sonra Paris və Vaşinqton rəsmi olaraq bəyan etdilər ki, Rusiya ilə heç bir formatda əməkdaşlıq etməyəcəklər. Onlar bu vasitə ilə ATƏT-in Minsk qrupunun fəaliyyətinin başa çatdığını elan etdilər”.

### ”Azərbaycanın iştirakı olmadan istənilən vasitəçilik missiyası mənasızdır”

”Ona görə də erməni həmkarlarımız bizə Minsk qrupu ilə bağlı xatırlatmalar edərkən biz onlara deyirik ki, həmin müraciətlərini bizə deyil, ABŞ-a və Fransaya ünvanlasınlar”, deyən Lavrov eyni zamanda burada Azərbaycanın mövcud vəziyyətdəki önəmi barədə vurğulayıb: ”Əlbəttə, söhbət burada həm də Azərbaycandan gedir. Ona görə ki, Azərbaycanın iştirakı olmadan istənilən vasitəçilik missiyası mənasızdır”.

RF-nın XİN rəhbəri bəyan edib ki, hazırda amerikalılar və fransızlar, ümumiyyətlə Avropa İttifaqı dəfn edilmiş Minsk qrupunu kompensasiya etməyə çalışırlar, vasitəçilik xidmətlərini təklif etmək vasitəsi ilə manelər yaradaraq Rusiyanın iştirakı sayəsində tərəflər arasında daha əvvəlcədən əldə edilmiş razılaşmaları özəlləşdirməyə cəhd edirlər: ”Misal üçün, Brüsseldə sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın iclası keçirilir”.

### ”Minsk qrupunu fransızlar və amerikalılar dəfn ediblər, bizim burada günahımız yoxdur”

Lavrov daha bir məqama da toxunaraq bildirib ki, azərbaycanlılar və ermənilər mədəni xaqdırlar: ”Onlar oraya gedirlər. Ancaq mənə bir şeyi təsəvvür etmək çətindir ki, hazırda keçmiş sovet respublikalarının xəritələrinin Rusiyanın Baş qərargahında olmasına rəğmən onlar xəritələr olmadan delimitasiya və sülh razılaşması haqqında məsələləri necə müzakirə edirlər”.

Lavrov bildirib ki, indi Minsk qrupu haqqında heç kim xatırlatmır. ”Hərdən Ermənistanın siyasi xadimləri xatırlayırlar. Minsk qrupunu fransızlar və amerikalılar dəfn ediblər, bizim burada günahımız yoxdur”.

**Rövşən**

# “Hər bir vətəndaş üçün öz Prezidenti tərəfindən təltif olunmaq böyük qürur və şərəfdir”



## Prezidentin təltif etdiyi şəxslər təəssüratlarını SİA ilə bölüşüb

**Xəbər verdiyimiz kimi, cənab Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə bir qrup şəxsi təltif edib. SİA təltif olunanların fikirlərini öyrənərək onlar arasında sorğu keçirib.**

**”Tərəqqi” medalı ilə təltif olunan deputat Cavid Osmanov:** ”Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə Prezident cənab İlham Əliyevin Sərəncamı ilə ”Tərəqqi” medalı ilə təltif olunmağım fəaliyyətimə verilən çox böyük qiymətdir. Təltif olunmağım ilə əlaqədar Partiyanın Sədri, Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevə, həmçinin partiyanın rəhbərliyinə dərin təşəkkürümü bildirirəm. Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan



Partiyasının amallarına və Prezident cənab İlham Əliyevin siyasi kursuna bundan sonra da sədaqətlə xidmət edəcəm. Ulu Tanrı Prezident cənab İlham Əliyevi, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı və Azərbaycanımızı qorusun”.

**3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif olunan deputat Hikmət Məmmədov:** ”Hər bir vətəndaş üçün öz prezidenti tərəfindən təltif olunmaq böyük qürur və şərəfdir. Lakin vətənə xidmətin ən ali nümunəsini yaratmış bir prezident tərəfindən təltif olunmaq ayrıca bir qürur və şərəfdir. Üstəlik, bu təltifin YAP-ın yaranmasının 30 illik yubileyi münasibətilə edilmə-



si mənim üçün mənəvi baxımdan olduqca dəyərlidir. Ona görə də Azərbaycan Prezidentinə bütün əqidədaşlarım adından ürəkdən təşəkkür edirəm. Bu, bütövlükdə YAP-ın fəaliyyətinə verilən mükafat kimi qiymətləndirilməlidir”.

**”Tərəqqi” medalı ilə təltif olunan deputat Elman Nəsirov:** ”YAP-ın 30 illiyi münasibətilə ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakıma görə məni ”Tərəqqi” medalı ilə təltif edən cənab Prezidentə sonsuz minnətdarlığımı ifadə edi-



rəm. Bu təltifi fəaliyyətimə verilən yüksək qiymət kimi dəyərləndirirəm və qürur duyuram.

Müzəffər Ali Baş Komandan tərəfindən mükafatlandırılmaq doğrudan da böyük xoşbəxtlik və şərəfdir. Bunu həm də əlavə bir məsuliyyət kimi qəbul edirəm. Prezident tərəfindən mükafatlandırılmağın çox böyük mənası və əhəmiyyəti var. Bundan sonra dövlətçiliyimizin müdafiəsi, cənab Prezidentin ideyalarının təbliği istiqamətində fəaliyyətimizi daha da gücləndirməliyik.

Prezident söyləyir ki, ”Gedin və xalqa ləyaqətli xidmət edin!”. Mən bu mükafatı həm də bundan sonra xalqıma daha da ləyaqətli və əzmkarlıqla xidmət etməyə çağırış kimi qəbul edirəm. Bundan sonrakı fəaliyyətimdə də çalışacağam ki, ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edim, Azərbaycanın dövlət maraqlarını hər yerdə müdafiə edim və güclü Azərbaycan dövlətinin daha da möhkəmlənməsi prosesinə az da olsa mən də öz töhfəmi verim. Bir daha cənab İlham Əliyevə təşəkkür edirəm”.

**2-ci dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif olunan YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə:** ”Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yaranması və fəaliyyəti müasir müstəqil Azərbaycan dövlə-



tinin qurucusu, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illiyi münasibətilə ”Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin təltif edilməsi haqqında” 30 noyabr 2022-ci il tarixli Sərəncamı əsasında 2-ci dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilməyim mənim üçün böyük şərəf, eyni zamanda, məsuliyyətdir. Heydər Əliyev siyasətinin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevə fəaliyyətimə verdiyi yüksək qiymətə və göstərdiyi etimada görə dərin təşəkkürümü bildirirəm. Əmin edirəm ki, bundan sonra da dövlətçiliyimizin inkişafına, qalib Azərbaycanın yaratdığı reallıqların qarşıya qoyduğu möhtəşəm vəzifələrin uğurla həyata keçirilməsi istiqamətində var gücümlə çalışacağam.

Cənab Prezidentin Sərəncamı ilə yüksək dövlət təltifinə layiq görülməyimlə bağlı mənə çoxsaylı təbrik edənlərin hər birinə dərin təşəkkürümü bildirirəm. Möhtərəm Prezidentimizin yüksək etimadı böyük məsuliyyət, gələcək fəaliyyət üçün çağırışdır. Bu baxımdan təltif olunanların hər birini təbrik edir, onlara gələcək fəaliyyətlərində daha böyük uğurlar diləyirəm!”.

**”Tərəqqi” medalı ilə təltif olunan deputat Əziz Ələkbərli:** ”Bu gün ”Tərəqqi” medalı ilə təltif olunmağım üç cəhətə görə - Azərbaycan Res-



publikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin sırasında təltif olunmağıma görə, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və cənab Prezidentin uğurla rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə təltif olunmağıma görə və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təltif olunmağıma görə mənim üçün qürurvericidir. Prezidentin etimadına layiq görülmək hər bir vətəndaş üçün şərəfdir və bu yüksək etimad üçün möhtərəm Prezidentimizə təşəkkür edirəm! Tanrı Xalqımızı, Dövlətimizi və tariximizə Zəfər yazan Müzəffər Ali Baş Komandanımızı daim var eləsin!”.

**”Əməkdar Jurnalist” fəxri adına layiq görülən ”Səs” qəzetinin siyasət şöbəsinin müdiri, yazıçı-publisist İlham Əliyev:** ”Məni Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakıma görə ”Əməkdar jurnalist” fəxri adla təltif etdiyinə görə cənab Prezidentimizə sonsuz təşəkkürümü bildirirəm. Bu yüksək ada layiq görülməyim jurnalist və yazıçı olaraq məsuliyyətimin artmasına, daha əzmli, daha səmərəli fəaliyyət göstərməyimə imkanlar yaradacaq. Bu yüksək adı layiqincə doğrultmaq üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.



Azərbaycanımızın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsi, xalqımızın maraqlarının təmin olunması istiqamətində sadiq təbliğatçınız olacağam. Mən hər zaman çalışmışam ki, jurnalist olaraq qələmə aldığım məqalələrdə, yazdığım publisistik əsərlərdə, bədii romanlarda xalqımızın maraqlarının önə çıxarılmasına, təbliğinə, Ulu Öndərimiz Heydər Əliyev ideyalarının yayılmasına, cənab Prezident, Sizin gördüyünüz əvəzsiz işləri, mütərəqqi nailiyyətləri, parlaq qələbələri cəmiyyətə təqdim və təbliğ edim. Sizin xalq və dövlət üçün gördüyünüz xeyirli, gərəkli işlərinizi, Ulu Öndərimiz Heydər Əliyev ideyalarını və Azərbaycanın milli maraqlarını daha geniş coğrafiyada yaymağı özümə şərəfli borc hesab edirəm. Əminliklə demək olar ki, Dahi Öndərimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan Prezidenti İlham Əliyev kimi uzaqgörən, müdrik, dahi siyasətçi yetişdirməsi olmuşdur. Məhz cənab Prezidentin müdrik siyasətinin nəticəsində Ulu Öndərimizin başlatdığı bütün işlər yüksək səviyyədə davam etdirilmiş, sosial-iqtisadi sahədə uğurlara nail olunmuş, 30 il işğal altında olmuş torpaqlarımız düşməndən azad olunaraq, ərazi bütövlüyümüz bərpa edilib, Azərbaycan dünyada Qalib bir dövlətə çevrilib.

Tarixi zərurətdən yaranan, Azərbaycanın hər bir qələbəsində böyük payı və imzası olan Yeni Azərbaycan Partiyası günbəgün, inkişaf edərək Cənubi Qafqazın ən böyük partiyasına çevrilib. Ötən 30 il ərzində çətin, uğurlu və şərəfli yol keçən Yeni Azərbaycan Partiyası 30 illik yubileyini Qalib Azərbaycanın Zəfər partiyası kimi qeyd edib. Qətiyyətlə demək olar ki, Azərbaycanın uğurları davamlı olacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla və davamlı şəkildə inkişaf etməkdədir”.

**”Tərəqqi” medalı ilə təltif olunan Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov:** ”Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illik yubileyi münasibətilə ”Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin təltif edilməsi haqqında” 30 noyabr 2022-ci il tarixli Sərəncamı ilə ”Tərəqqi” medalı ilə təltif edilməyim mənə olduqca böyük sevinc bəxş etdi. Prezident İlham Əliyevin məni dövlət təltifinə layiq görməsi heç şübhəsiz ki, böyük qürurdur, şərəfdir, eyni zamanda məsuliyyətdir. Bu dövlət təltifi bundan sonra da daha məsuliyyətli olmağı, təmsil etdiyimiz sahədə ölkəmizə yeni-yeni töhfələr verməyimiz üçün var gücümüzlə çalışmağı stimullaşdırır. Bu mənada Prezident İlham Əliyevə və Yeni Azərbaycan Partiyasının rəhbərliyinə fəaliyyətimə verdiyi yüksək qiymətə, göstərdiyi etimada görə dərin təşəkkürümü bildirirəm. Əmin etmək istəyirəm ki, bundan sonra da dövlətçiliyimizin, partiyamızın möhkəmləndirilməsinə və inkişafına bütün potensialımı sərf edəcəm, qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə



çalışacağam”.

**”Tərəqqi” medalı ilə təltif olunan deputat Aydın Hüseynov:** ”Ölkə Prezidenti, Ali Baş komandan, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev tərəfindən partiyanın 30 illik yubileyi münasibətilə təltif olunanlar arasında öz adımı da görmək mənim üçün qürurvericidir. Bunun üçün cənab Prezidentə öz minnətdarlığımı bildirirəm.



Prezident bütün fəaliyyəti dövrü Azərbaycan xalqının inkişafına, ölkəmizin qüdrətlənməsinə çox böyük töhfələr verib,fəxr edəcəyimiz Zəfər qələbəsini bizə bəxş edib və 44 gündə Azərbaycanın 30 il ərzində işğal olunan torpaqlarını azad edib. Bu gün Azərbaycan iqtisadiyyatı özünün inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın iqtisadi və siyasi nüfuzu daha da artıb. Ölkə Prezidentinə böyük uğurlar arzulayıram. Daim cənab Prezidentin ətrafında sıx birləşmək və xalqımıza töhfə vermək bizim borcumuzdur”.

**Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə təltif edilən, YAP Sabunçu rayon təşkilatının sədri Misirxan Vəliyev:** ”YAP ümum-Azərbaycan xalqının partiyasıdır. Partiyanın 30 illiyi münasibətilə hamını təbrik edirəm. Allah Ulu Öndər Heydər Əliyevin ruhunu şad etsin. O öz həyatını Azərbaycan xalqının yo-




lunda fəda edib.

Mənim və ailəmin həyatında bu addımın çox böyük rolu var. Cənab İlham Əliyevin mənə Prezident təqaüdü verməyi böyük fəxrdir. Bunun üçün çox sevinirəm. Allah cənab Prezidenti qorusun. Mənim həyatımda ən yüksək qiymət budur”.

*Ayşən Vəli*

# İrina Vereşşuk: "Təxliyə başlanandan Xersondan 2500-dən çox sakin köçürülüb"

***Hazırda işğaldan azad edilmiş ərazilərin sakinlərinə təcili maliyyə yardımı göstərilməsi prioritet vəzifədir. Beynəlxalq donorların sayəsində belə sakinlərə birdəfəlik maliyyə yardımı ödənilməsi qaydaya salınıb. 62 minə yaxın vətəndaş təqribən 80 milyon qrivna məbləğində yardım alıb. Ukraynanın Baş nazirinin müavini, müvəqqəti işğal altında olan ərazilərin reinteqrasiyası məsələləri üzrə nazir İrina Vereşşuk bu fikirləri AZƏRTAC-a məxsusi müsahibəsində söyləyib.***



*-Ukraynanın Rusiya tərəfindən işğaldan azad edilmiş ərazilərində əhalinin həyati əhəmiyyətli tələbatının təmin edilməsi və bərpa işləri sahəsində vəziyyət necədir?*

-Bu günə qədər 360 mindən çox sakinin yaşadığı minə yaxın məntəqə işğaldan azad edilib. Hökumət belə ərazilərin bərpası üzrə hazırlanmış xüsusi planı tətbiq edir. Bu planın əsasını Kiyev və Xarkov vilayətlərinin bərpası zamanı qazandığımız təcrübə təşkil edir. Hazırda işğaldan azad edilmiş Xarkov, Donetsk, Xerson və Nikolayev vilayətlərinin ərazilərində də belə işlər aparılır.

Görüləsi işlər çoxdur - ərazilərin minalardan təmizlənməsindən və elektrik təchizatının bərpasından başlamış, pensiyaların ödənilməsinə və tibbi xidmətin təşkilinə qədər. Əlbəttə, ən birinci məsələ ərazilərin minalardan təmizlənməsidir. Paralel olaraq infrastruktur bərpa edilir. Bu günə qədər 266 yaşayış məntəqəsində rabitə, Xerson da daxil olmaqla 351 yaşayış məntəqəsində elektrik təchizatı, 161 yaşayış məntəqəsində qaz təchizatı, 667 yaşayış məntəqəsində su təchizatı bərpa olunub.

Hökumət beynəlxalq təşkilatlar və könüllülərlə birlikdə humanitar yüklərin - ərzaq, su, dava-dərman və digər ilkin zərurət mallarının çatdırılmasını təmin edir. İşğaldan azad edilmiş ərazilərin 300 minə yaxın sakininə 12 min tondan artıq belə yardım paylanıb.

Biz tibb müəssisələrinin, sosial müdafiə orqanlarının, bankların və poçtun işini mümkün qədər tezliklə bərpa etməyə çalışırıq. Artıq 408 yaşayış məntəqəsində sosial müəssisələr, 17 yaşayış məntəqəsində banklar, 583 yaşayış məntəqəsində "Ukrpoçt"un stasionar bölmələri işləyir. Bu məntəqələrin hər birində tibb müəssisələri və ya tibbi yardım göstərilən məntəqələr fəaliyyətdədir.

Kreml tərəfindən başlanmış enerji müharibəsi şəraitində qarşıdan gələn qışa hazırlıq məsələsinə xüsusi diqqət yetirilir. Hökumət ölkəyə kütləvi şəkildə elektrik generatorları gətirilməsi üzərində işləyir. Belə generatorlar, ilk növbədə, işğaldan azad edilmiş ərazilərə çatdırılacaq. Kənd rayonları üçün odunun pulsuz paylanmasını nəzərdə tutmuşuq.

Bütün Ukraynada, ilk növbədə, işğaldan azad edilmiş ərazilərdə müasir isinmə məntəqələri quraşdırılır. Belə məntəqələrdə eyni vaxtda 50-500 nəfər ola bilər. Məktəb, xəstəxana binalarında, inzibati binalarda, vağzallarda və kommersiya binalarında quraşdırılan belə məntəqələrdə qızınmaq, qadjetlərə enerji doldurmaq və qəlyanaltı etmək üçün şərait var. Hazırda Ukraynada təqribən 4500 belə məntəqə fəaliyyətdədir.

*-Ukraynanın hansı regionlarında məcburi təxliyə işləri görülür?*

-Bizdə məcburi təxliyə anlayışı yoxdur. Avqust ayında Donetsk vilayətində zəruri təxliyə elan edilmişdi. Bu tədbirin xüsusiyyəti ondan ibarətdir ki, o, dövlət hesabına həyata keçirilir. Belə təxliyədən imtina edənlər bunu yazılı şəkildə təsdiq etməlidirlər.

Hazırda Xersondan və yaxınlıqdakı yaşayış məntəqələrindən təxliyə işləri görülür. Bu, tamamilə könüllü, lakin dövlət tərəfindən maliyyələşdirilən tədbirdir. Əhalinin oradan köçürülməsi zərurəti şəhərin daim atəşə tutulması, habelə elektrik, su və istilik təchizatı problemləri ilə bağlıdır. Əhalinin daha həssas kateqoriyalarının - qocaların, xəstələrin, hərəkət etmək imkanı məhdud olan insanların, uşaqlı qadınların təxliyəsi prioritet sayılır. Biz belə insanları ölkənin mərkəzi və qərb regionlarına köçürməyə çalışırıq. Bu halda əhalinin daşınması, xüsusi yataqxanalarda pulsuz yerləşdirilməsi, qidalanma, humanitar və tibbi yardım göstərilməsi ilə bağlı bütün xərcləri dövlət öz üzərinə götürür. Təxliyə başlanandan bəri 2500-dən çox sakin Xersondan daha təhlükəsiz regionlara köçürülüb.

*-Qış aylarında Ukraynada insanların yaşayış şəraitinin normallaşdırılması barədə beynəlxalq tərəfdaşlarla hansı danışıqlar aparılır?*

-Rusiya enerji müharibəsi aparır. Onlar qış vaxtı bizim enerji infrastrukturuna sarsıdıcı zərbələr endirməyə çox ümid edirlər. Bizim enerji obyektlərimizin qorunması üçün raketdənmüdafiə sistemləri lazımdır. Bu məsələdə Beynəlxalq tərəfdaşlarımızın köməyinə ehtiyacımız var. Bundan əlavə, zədələnmiş obyektlərin sürətlə bərpa edilməsi üçün enerji avadanlığı tələb olunur. Mülki əhalini qorumaq üçün bizə, ilk növbədə, raketdənmüdafiə sistemləri və enerji avadanlıqları lazımdır.

Təbii ki, beynəlxalq humanitar təşkilatlarla müxtəlif istiqamətlər üzrə fəal iş aparırıq - əhalinin həssas kateqoriyalarına maliyyə dəstəyi, generatorlar, yanacaq, isti paltar, qızınma məntəqələri daxildir.

*-Xersonda və Nikolayevdə son vəziyyət barədə nə deyə bilərsiniz?*

-Nikolayevdə su ilə bağlı problemlər var, orada bu vəziyyət aylarla davam edir və insanlar uyğunlaşıblar. Kinburn zolağı istisna olmaqla bütün Nikolayev vilayəti işğaldan azad edilib. Şəhəri atəşə tuturlar, vəziyyət gərgindir, lakin bizim tam nəzarətimizdədir.

Xersonda vəziyyət daha mürəkkəbdir. Bu şəhərdə elektrik təchizatı qismən var, lakin işğal dövründə və geri çəkilərkən düşmən şəhərin infrastrukturuna ciddi zərər vurub. İndi bu infrastrukturu bərpa etmək üçün çox səy göstərmək lazım gəlir. Əsas problem ondan ibarətdir ki, şəhər faktiki olaraq cəbhə xəttindədir və sistematik surətdə atəşə məruz qalır. Lakin burada dövlət hakimiyyəti infrastrukturu bərpa edilib, dövlət bankları işə başlayıb, pensiyalar ödənilir.

Əlbəttə, indi Xersona kömək göstərilməsi zəruridir. Hökumət, başqa şəhərlər və vilayətlər, beynəlxalq donorlar, könüllülər bu şəhərə kömək edirlər. Müntəzəm olaraq humanitar yardım gətirilir. Bundan əlavə, Prezident Volodimir Zelenskinin təşəbbüsü ilə Xersonda sarsılmazlıq məntəqələri şəbəkəsi yaradılıb. Xüsusi təchiz olunmuş yerlərdə vətəndaşların qızınması, isti yemək və qaynar içkilər almaq, qadjetləri enerji ilə doldurmaq, peyk internetindən istifadə etmək, sosial işçilərdən və tibb işçilərindən məsləhətlər alması üçün şərait yaradılıb.

# Milli Məclis: "Fransanın insanlıq əleyhinə cinayətləri bəşər tarixinin qara səhifələridir"

Azərbaycanı Ermənistana qarşı müharibə cinayətləri törətməkdə əsassız ittiham edən Fransanın öz tarixi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə zəngindir. Dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqları uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Milli Məclisinin Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamə ilə bağlı 2022-ci il 1 dekabr tarixli açıqlamasında yer alıb.



"Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmiş və açıq şəkildə qul ticarəti ilə məşğul olmuşlar. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir", - deyə açıqlamada bildirilib.

Qeyd olunub ki, qətnamədə Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalçılıq və etnik təmizləmə siyasəti, Xocalı soyqırımı, 44 günlük müharibə zamanı Azərbaycanın şəhərlərinin ballistik raketlərlə atəşə tutulması, işğal dövründə ölkəmizin 9 şəhəri və 300-dən artıq kəndinin viran edilməsi, total minalama və mina terroru siyasəti, 4000 nəfərə yaxın vətəndaşımızın itkin düşmüş hesab olunması, kütləvi məzarlıqların yerləri barədə Ermənistan tərəfindən məlumat verilməməsi kimi faktların yer almaması onun ucuz siyasi sifarişdən başqa bir şey olmadığını açıq şəkildə göstərir.

# "Rus sülhməramlılarını yola salmaq üçün hazırlıqlara başlamalıyıq"



"Mifik "artsax"ın "çiçəyi burnunda" təzə "dövlət naziri", Kremlin adamı, erməni oliqarx Ruben Vardanyan bu günlərdə ermənilərə yönəlik video-müraciətində bildirib: "Ya 900 gün ərzində biz təhlükəsizlik məsələsini həll edəcəyik və bir yol tapacağıq ki, "artsax"da insanlar özlərini tənha və tərk edilmiş hiss etməsinlər, öz gələcəklərini burada görsünlər, ya da dünya erməniliyinin əsas dayaqlarından birini itirəcəyik". Arxasında Rusiyanın durduğu heç kimdə şübhə doğurmayan oliqarx-dələduz ardınca sadə erməniləri Azərbaycana qarşı daha da qızışdıran ifadələr işlədib". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, Ruben Vardanyanın 900 gün xofu (Rusiya sülhməramlı qüvvələrin mandatının bitəcəyi 2025-ci ilin 10 noyabrına 6 ay qalmış (2025-ci ilin 10 mayı) Bakının verəcəyi imtina qərarınadək olan tarix nəzərdə tutulur: "Bəyanatda yazılıb ki, 6 ay qalmış tərəflərdən biri razı olmasa, sülhməramlılar müddət bitdikdən sonra Qarabağı tərk etməlidirlər.) tamamilə anlaşılandır. Əslinə qalsa, rus sülhməramlıları Vardanyanı Qarabağa buraxmamalı, onun orda yerləşməsinə imkan verməməliydilər. Ancaq son dövrlər olduğu kimi bu dəfə də Putin Rusiyası reallıqları düzgün qiymətləndirə bilmədi və növbəti dəfə yanlış qərar verdi. Azərbaycan Prezidenti bu günlərdə qəti şəkildə bəyan elədi ki, "Qarabağ ermənilərinin nümayəndələri ilə görüşlər bundan sonra da davam etdiriləcək, ancaq Moskvanın göndərdiyi adamla heç bir təmas olmayacaq, bizim nümayəndələr onunla danışmayacaqlar. Bu birbaşa Moskvaya göndərilmiş mesaj idi: münasibətlərimizin müttəfiqlik deyil, heç olmasa normal səviyyədə qalmasını istəyirsinizsə adamınızı təcili Qarabağdan götürün. Vardanyanın Qarabağda qalmasının bölgədə vəziyyəti gərginləşdirəcəyi, Rusiyanın vasitəçilik imkanlarını xeyli azaldacağı barədə yəqin ondan sonra da Moskvaya xəbərdarlıq olunub".

A.Səmədov onu da bildirib ki, KTMT sammiti ərəfəsində Rusiya prezidentinin təşəbbüsü ilə baş tutan telefon danışığında bu məsələnin ətraflı müzakirə edildiyi istisna olunmurdu: "Vladimir Putin bu xəbərdarlıqlardan düzgün nəticə çıxara biləcəkmi? Ehtimal çox az olsa da, hər halda ümid edirik ki, Rusiya rəhbəri Ruben Vardanyanın Qarabağda qalmasının münasibətlərimizin soyuqlaşmasına gətirib çıxaracağını, onun vasitəçilik şansının qalmayacağını, Türkiyə ilə münasibətlərdə ciddi problemlər yaşanacağını anlaya biləcək. Bununla belə, etiraf etməliyik ki, bu ehtimal o qədər də yüksək deyil. Son aylar biz dəfələrlə Rusiya prezidentinin son dərəcə yanlış, dövlət başçısına qətiyyən yaraşmayan, "intriqa" qoxulu bəyanatlarının şahidi olmuşuq. Çox güman ki, bu dəfə də eyni davranış təkrarlanacaq və Rusiya təzyiqə əl ataraq sülh sazişinin öz vasitəçiliyi ilə imzalanmasına çalışacaq. Bu vəziyyətdə biz təmkinimizi qorumalı, erməni təxribatlarına uymadan indiyə qədər təmkinlə yürütdüyümüz siyasi xətti davam etdirməliyik. İlin sonuna qədər Avropa İttifaqının və ABŞ-ın birgə vasitəçiliyi ilə sülh sazişinin imzalanmasına nail olmaq üçün əlimizdən gələni etməliyik. Eyni zamanda, həm onların, həm də Türkiyənin dəstəyi ilə 900 gündən sonra rus sülhməramlılarını yola salmaq üçün artıq hazırlıqlara başlamalıyıq".

**Gülyana**

# “Dövlət Bayrağımız Şərqi Zəngəzurda və Qarabağda əzəmətlə dalğalanır”



“Bəşəriyyətin ən qədim xalqlarından biri olan Azərbaycan xalqı müdrikliyi, müstəqil olmaq istəyi, dövlətçilik ənənələri, qurub-yaratmaq təşəbbüsü, sivil yaşam tərzi, həmçinin zəngin mədəniyyəti,ədəbiyyatı ilə dünya tarixində özünəməxsus yer tutur. Tarixin bəlli dövrlərindən bu günə kimi, mənbəyindən asılı olmayaraq xalqımız haqqında rast gəlinən bütün məlumatlarda yalnız onun qəhrəmanlığından, azadlıq mübarizəsindən, sahib olduğu dövlətlərin qüdrətindən söz açılır. Xalqımızın müdrikliyi də məhz ondadır ki, tarixdə hər zaman müsbət izlər qoyub. Ucaltdığı bayrağın ətrafında birləşən insanlar ədalətli, humanist, güclü bir dövlətin nümayəndələri olublar. Müəyyən dövrlərdə işğala, təcavüzə məruz qalsalar da, şərəfli mübarizə aparıblar, azadlıqları uğrunda mücadilədən geri çəkilməyiblər. Xalqımızın yetirdiyi övladlar müstəqillik uğrunda yorulmadan mübarizə aparıblar. Bu mübarizə bütün sahələrdə - meydanlardan tutmuş ədəbiyyatımıza qədər özünü göstərirdi. Ənənəsinə sadiq qalan ata-babalarımız 1918-ci ildə min bir əziyyətlə müstəqil, demokratik dövlət quraraq üç rəngli, ay-ulduzlu bayrağımızı Vətənin göylərinə ucaltdılar. Və bu bayraq bizim dövlətimizin varlığının, milli kimliyimizin, tutduğumuz yolun carçısı oldu”. Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

”Xalqımızı öz ətrafına toplayan bayrağımız sovet hakimiyyəti illərində onun istiqlal mübarizəsinin, azadlıq məfkurəsinin simvoluna çevrildi. Göstərilən təzyiqlərə, represiyalara baxmayaraq, xalqımız dövlətçiliyinin, varlığının rəmzini unutmadı, qəlbinin dərinliklərində ən ali sevgi ilə yaşatdı. Azərbaycanımüstəqil, azad görmək arzusu ilə yaşayan, gördüyü işlərlə xalqımıza istiqlal cığırı açan, hər zaman bu müqəddəs yola işıq saçan Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağını 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq təsdiq edilməsinə nail oldu. Bu, o dövr üçün nə qədər çətin qərar olsa da, xalqına, Vətəninə olan sevgisi, onu azad görmək arzusu Ulu Öndəri heç nədən çəkindirə bilmədi. Heydər Əliyevin daha bir tarixi təşəbbüsü ilə Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıldı və bu vəsatət əsasında üçrəngli bayrağımız Dövlət Bayrağı elan edildi. Həmin vaxtdan başlayaraq müstəqil dövlətimizin müqəddəs rəmzi olan bayrağımız beynəlxalq və regional təşkilatların önündə milli varlığımızı, dövlətimizin mövcudluğunu, suverenliyimizi əzəmətlə dalğalanaraq bütün dünyaya nümayiş etdirirır”, - Milli Məclisin deputatı bildirib.

”Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilən Azərbaycanın Konstitusiyasında da üç rəngli bayrağımız təsdiqləndi. Ümummilli Liderimizin müzəffər davamçısı cənab İlham Əliyev hər zaman gənc nəsilin dövlət rəmzlərinə hörmət ruhunda tərbiyə olunması, onlarda vətənpərvərlik hissinin möhkəmləndirilməsi istiqmətində mühüm işlər görür. Prezidentimiz dövlət rəmzlərinə hörmət və ehtiramını nümayiş etdirərək 2009-cu il noyabrın 17-də ”Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” sərəncam verdi. Bununla da hər ilin 9 noyabr tarixi ölkəmizdə Dövlət Bayrağı Günü kimi bayram olaraq böyük coşqu ilə qeyd edilir. Şanlı tariximizin qızıl səhifəsi olan 44 günlük Vətən müharibəsində Azərbaycanın qəhrəman oğulları işğaldan qurtardıqları rayon və kəndlərimizin ən uca nöqtələrində ilk olaraq bayrağımızı qaldıraraq bu ərazilərin bizə məxsus olduğunu bəyan edirdilər. Fəxarətlə deyə bilərik ki, bu gün Dövlət Bayrağımız, ölkəmizin hər yer yerində, o cümlədən Şərqi Zəngəzurda və Qarabağda qürurla dalağalanır. Bu mənzərəni seyr etdikcə hər birimizin qəlbi fərəh hissi ilə döyünür. İnanırıq ki, bundan sonra da bayrağımız müstəqil Azərbaycanın dövlət rəmzi olaraq əbədi dalğalanacaq”, - AHİK sədri qeyd edib.

***Banuçiçək Hüseynli***

## Əsrlər boyu qan tökən fransızların qəddar davası

Xəbər verdiyimiz kimi, Fransa Milli Assambleyası Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil edərək noyabrın 30-da beynəlxalq hüququn normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirən, dövlətimizin ərazi bütövlüyünü və suverenliyini hədəf alan məkrli, qeyri-obyektiv və ədalətsiz bir akt qəbul edib.

Cənubi Qafqazda tarazlığı dəyişən Azərbaycanı ittiham edən Fransa kütləvi qətliamlarla dolu arxivi ilə yenidən gündəmə gəlmək istəyib. Azərbaycanı Ermənistana qarşı müharibə cinayətləri törətməkdə əsassız şəkildə ittiham edən Fransanın öz tarixi müharibə cinayətləri və insanlıq əleyhinə vəhşiliklərlə zəngindir. Yüz ildən artıqdır afrikalılara, sözün həqiqi mənasında, qan qusduran, sərvətlərini istismar edən fransızlar dünyanın müxtəlif bölgələrində 50-dən çox dövlətin ərazisini işğalda, xalqlarını uzun illər əsarətdə saxlayıb. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirib və açıq şəkildə qul ticarəti ilə məşğul olub. AZƏRTAC Fransanın siyasi tarixində silinməsi mümkün olmayan bəzi ləkələrin - soyqırımı cinayətlərinin siyahısını təqdim edir.







Vande qırğını - Fransa İnqilabından dərhal sonra ölkənin qərb hissəsindəki Vande bölgəsində üsyan edən katolik xristianların qətliamı nəticəsində 600 min katolik öldürülüb.

Vyetnam - 1872-1954-cü illər arasında bu ölkədə 500 mindən çox vyetnamlı qətlə yetirilib.

Əlcəzair soyqırımı - Fransa işğal zamanı 1 milyon 500 min əlcəzairlini amansızlıqla öldürüb.

Ruanda - Fransızlar 1994-cü ildə 800 min insanın ölümü ilə nəticələnən qırğına görə məsuliyyət daşıyırlar.

Afrikanın digər ölkələri - Qabon, Seneqal, Benin, Tunis, Qvineya, Burkina-Faso, Çad, Kamerun və Cibutidə fransızlar insanları öldürməklə kifayətlənməyərək, həmçinin sağ qalanları iman gətirməyə məcbur ediblər. Ötən əsrdə əhalisi əsasən İslama sitayiş edən bu ölkələrdə insanlara zorla xristianlığı qəbul etdiriblər.

Bütün bunlar və adlarını çəkmədiyimiz neçəneçə digər silinməz faktlar deməyə əsas verir ki, Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir.

ARAŞDIRMA

## Suriyalı professor:
## ”Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycan xalqı şər qüvvələrə qalib gəldi”



**1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ermənilərin və onların himayədarlarının təcavüzü ilə üzləşdi və dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti sayəsində azərbaycanlılar bu şər qüvvələrə qalib gəldilər.**

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində suriyalı professor və yazıçı Səid Tuğlu söyləyib. O əlavə edib: ”Mən ərəb mətbuatında ilk dəfə Azərbaycanla bağlı analitik məqalə ilə çıxış etdim. Oxucularıma qardaş xalqın tarixi, ortaq dini və mədəni ənənələrimiz, xüsusən, Ermənistanın təcavüzü və işğal etdiyi Azərbaycan ərazilərində törətdiyi vəhşiliklər, o cümlədən İslam abidələrinin və məscidlərin məhv edilməsi barədə ətraflı məlumat verdim. Suriya ziyalıları arasında da Azərbaycan həqiqətlərini təbliğ etməyə davam edirəm. Onlarla söhbətlərimdə vurğulayıram ki, ötən əsrin sonlarında azərbaycanlılar da ağır sınaqlar, məhrumiyyətlər və dövlətin parçalanması təhlükəsi ilə qarşı-qarşıya qalıblar. Bəzi xalqlardan fərqli olaraq, onları bu çətin vəziyyətdən çıxara biləcək dövlət xadimi, lider olub. Bu, dünyanın ən görkəmli siyasət xadimlərindən biri olan Heydər Əliyev idi”.

Suriyalı professor daha sonra qeyd edib: ”Heydər Əliyevin səyləri və mətanəti sayəsində Azərbaycan misli görünməmiş tərəqqi yolu keçdi. İqtisadi inkişaf, demokratiya prinsiplərinin bərqərar olması, dünya dövlətləri, o cümlədən İslam aləmi ilə möhkəm əlaqələrin qurulması, iqtisadi tərəqqinin qüdrətli ordu quruculuğu prosesinə inikası öz bəhrəsini verdi. Dahi siyasətçi çox gözəl bilirdi ki, zəif dövlət hər zaman məğlubiyyətə məhkumdur. Uzun illər Azərbaycana rəhbərliyi dövründə qazanılmış böyük təcrübə, eyni zamanda, öz xalqına xidmət etmək amalı onu milli liderə çevirdi. Bu gün haqlı olaraq qeyd edilir ki, İkinci Qarabağ müharibəsində şanlı Zəfər və ərazilərin işğaldan azad edilməsi həmin siyasi təcrübənin və xalqa olan sevginin məntiqi nəticəsi oldu. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi şəxsiyyəti və müdrik dövlət xadiminin gələcək nəsillərin də rifaha, tərəqqiyə qovuşmasını təmin edəcək siyasi və dövlətçilik irsi var”.

# "Dəmir Yumruq" siyasəti və Laçının qayıdışının iki ili

**Böyük strateji əhəmiyyətə malik olan Laçının işğaldan azad edilməsindən 2 il ötür. Müzəffər Azərbaycan Ordusunun Laçın şəhərinin mərkəzini, Zabux və Susu nəzarətə götürməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, sarsılmaz siyasi iradəsinin nəticəsində mümkünsüzü mümkün etdt. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli birgə bəyanata əsasən 2020-ci il dekabrın 1-də Laçın rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı.**

Müzəffər Ali Baş Komandanımızın tvitterdə paylaşdığı statusunda: "Bu gün, avqustun 26-da biz - Azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün Laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!". Bəli, məhz bugünkü tarix və Müzəffər Ali Baş Komandanımızın sözləri - də şanlı Zəfər tariximizin bundan sonra heç vaxt silinməyəcək qürur səhifəsinə yazıldı. Və dövlət başçımızın bir müddət əvvəl nəyi, necə və nə vaxt etmək fəlsəfəsini əks etdirən bəyanatı da bir daha öz təsdiqini tapmış oldu!







**PREZİDENT İLHAM ƏLİYEV: "Bir güllə atmadan biz Laçın rayonunu qaytardıq"**

## MƏN NƏYİ, NƏ VAXT VƏ NECƏ ETMƏYİ ÖZÜM BİLİRƏM

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bildirmişdi: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm". Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Prezident indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib, bu sözünə də əməl edəcəkdir. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi. Beləliklə, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qələbəsidir.






Prezident İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması ilə bağlı xalqa müraciətində demişdir: "Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə".

## LAÇINDA ERMƏNİ VƏHŞİLİYİ

Bəli, böyük strateji əhəmiyyətə malik olan Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal nəticəsində rayonun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb.İşğal nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan və məhv edilib. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb.

1930-cu ildə inzibati ərazi vahidi statusu alan bu rayon 1835 kvadrat kilometrlik əraziyə malik olmaqla Kəlbəcər, Qubadlı, Xocalı, Şuşa, Xocavənd rayonları və Ermənistanla həmsərhəddir. 1 şəhər,1 qəsəbə və 125 kəndən ibarət olan Laçın rayonun 18 may 1992-ci il tarixində düşmən Ermənistan tərəfindən işğal olunmuşdur. Yüksək strateji əhəmiyyəti malik Laçın rayonu düşmənin Dağlıq Qarabağla birbaşa ərazi əlaqəsinin yaranmasında həyati əhəmiyyət kəsb edib. İşğal nəticəsində rayonun 79.1 min nəfər əhalisi respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb. Ermənistanın təcavüzkar siyasətinin tərkib hissəsi olaraq Laçında etnik təmizləmə siyasəti nəticəsində burada 300 nəfərdən çox hərbi və mülki şəxs qətlə yetirilib, itkin düşüb. Rayonun 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri düşmən tərəfindən talan edilərək məhv edilib. Dünya və yerli əhəmiyyətli tarixi abidələr xüsusi vəhşiliyə məruz qalaraq yerlə-yeksan olunub. Ermənistan işğalçı tərəf olaraq Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən, Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla, məqsədyönlü məskunlaşma siyasəti apararaq, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərlə məşğul olub. Bu cür əməllər bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş verib.

## LAÇIN RAYONU AZƏRBAYCANIN GƏLƏCƏK İQTİSADİ İNKİŞAFINDA MÜHÜM ROL OYNAYACAQ

Laçının qaytarılmasını böyük tarixi hadisə adlandıran dövlətimizin başçısı xüsusi vurğulayıb ki, "Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq. İlk növbədə, biz Laçına laçınlıları qaytaracağıq. Əziz laçınlılarla bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, gözaydınlığı verirəm. Laçın işğal olunanda bu rayonda təqribən 50 mindən bir qədər çox əhali yaşayırdı. İndi Laçın rayonunun əhalisi 80 min nəfərə çatıb. Əlbəttə ki, laçınlıları qısa müddət ərzində Laçına qaytarmaq bizim əsas vəzifələrimizdən biri olacaqdır. Həmçinin biz çalışacağıq ki, keçmiş məcburi köçkünləri işğaldan azad edilmiş bütün digər rayonlarımıza qısa müddət ərzində qaytaraq". Bəli, hazırda işğaldan azad olunmuş bütün ərazilərdə olduğu kimi Laçın rayonunda da böyük quruculuq işləri həyata keçirilir, iri infrastruktur layihələr icra olunur. Qeyd edək ki, Prezident İlham Əliyev azad olunmuş Laçın rayonuna 4 dəfə səfər edib. İlk səfəri zamanı dövlətimizin başçısı Güləbird kəndində Azərbaycan bayrağını ucaldıb. Generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.Həmçinin, Prezident İlham Əliyevin 2020-ci il iyunun 26-da təməlini qoyduğu Laçın Beynəlxalq Hava Limanının 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaqdır. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Eyni zamanda, uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur.Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə Laçın rayonunda çoxsaylı layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Bütün bunlar onu göstərir ki, doğma Laçınımız tezliklə öz əvvəlki şöhrətini bərpa edəcək və yenə də cənnət məkana çevriləcəkdir.

Bəli, bütün bunlar onu göstərir ki, doğma Laçınımız tezliklə öz əvvəlki şöhrətini bərpa edəcək və öz keçmiş həyatına qayıdacaqdır.Dövlət başçımızın dediyi kimi: Fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan! Laçın bizimdir! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Separatçıların
# LAÇIN DƏHLİZİ QORXUSU

***Qarabağdakı erməni separatçıları həyəcan təbili çalmaqda davam edirlər və nəzərə alsaq ki, Laçın dəhlizi ilə bağlı məsələ onlar üçün taleyüklü hesab olunur, deməli, əvvəlcədən qorxuya düşmələri də anlaşılandır. ”Azərbaycan Laçın dəhlizini bağlayacaq!..”, deyə hayqıran hayların səsi hər yerə çatsa da onların səsini İrəvan ya eşitməməzliyə vurur, ya da kömək edəcəkləri barədə yalançı vədlər verirlər. Vədlərinin yalançı olduğunu başa düşən həmin o separatçılar da məhz bu səbəbdən rahatlıq tapa bilmir, hətta qorxu içərisində də qalırlar.***

Laçın dəhlizinin bağlanacağı qorxusu ilə yaşayanlar hər tərəfə səs salırlar ki, onlara hücum olacaq. ”Əgər Azərbaycan Laçın dəhlizini bağlamağa cəhd etsə və ya avtomobillərin giriş-çıxışını əngəlləməyə cəhd etsə, bunun çox ciddi, o cümlədən geosiyasi nəticələri olacaq. Bu, həm də Rusiya sülhməramlıları üçün dəhşətli zərbə olacaq, çünki müharibədən sonra 2020-ci ildə qoyulmuş sülh yolu ilə nizamlanmanın bütün məntiqi faktiki olaraq bərabərləşəcək”, deyə hayqıran, Qarabağda özünü ”xarici işlər naziri” kimi təqdim edən David Babayan təəssüf hissi keçirdiyini, yəni qorxduğunu gizlətmir. O, hətta bildirir ki, hər şey onlar üçün alt-üst olacaq. Əslində isə, onlar özləri bu zamana qədər hər şeyi alt-üst ediblər və Babayan bunu etiraf etsəydi daha məntiqli olardı. Dəhliz məsələsi, eyni mövzu ilə bağlı hay-küy salan hay təkcə Babayan deyil. Qondarma ”ombudsman” Qeqam Stepanyan da keçirdiyi həyəcanı ilə özünü, qorxu hissini bəlli edib. ”Azərbaycan Laçın dəhlizindən hərbi məqsədlər üçün istifadə edilməsi ilə bağlı ittihamlar səsləndirir və bu, dəhlizin bağlanması fikrindən xəbər verir”, deyən Stepanyanın İrəvana mesaj vermək niyyəti də aydın olur. Hətta erməni ekspert Qarnik Davtyan belə bir fikir formalaşdırmağa çalışır ki, guya Azərbaycan Laçın dəhlizinə nəzarəti bərqərar etmək və Zəngəzur dəhlizini almaq üçün hərbi təxribat hazırlayır, hansıki bu da ermənilərin keçirdikləri qorxunun açıq-aydın təzhürü, eyni zamanda həyəcanlarının təzahürüdür.

Görünən odur ki, separatçılar artıq Laçın dəhlizi ilə bağlı bərk qorxu içərisindədirlər və hansı vəziyyətlə qarşılaşacaqlarından ehtiyat edirlər. Məntiqi olaraq bəlli olur ki, separatçıların qorxusuna da əsasları var, çünki onlar bunun üçün kifayət qədər şərait yaradıblar. Yəni, etdikləri qanunsuzluqlara, separatçı əməllərə, təxribatlara, eləcə də etmədiklərinə görə müvafiq addımlarla qarşılaşacaqlarını gözləmələri də məntiqidir. Onlar bilirlər ki, çirkin avantüralarına görə Azərbaycandan adekvat cavab gözləməlidirlər və Azərbaycan tərəfinin belə bir cavab haqqı var. Başa düşürlər ki, bütün çirkin əməllərinin müqabilində onlar cavab verməli olacaqları taleyüklü zamanla üzləşməli olacaqlar və keçirdikləri qorxu da bu səbəbdəndir. Fərrux əməliyyatlarını da əlbəttə ki, xatırlamaları tam yerinə düşür və başa düşürlər ki, oxşar vəziyyətlə qarşılaşmaları üçün yetərincə əsas yaradıblar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun son bəyanatı separatçıları yetərincə narahat edib və bu, onların davranışlarında da, ifadələrində də özünü biruzə verir. Başa düşürlər ki, Azərbaycan tərəfi boş yerə bəyanat vermir və onlardan fərqli olaraq bizim tərəfimizdə deyilənlər boş sözlər yığını deyil. Bunun dəfələrlə də şahidi olublar. ”Bu bitməlidir. Azərbaycan tərəfi bunun üçün bütün lazımi addımları atacaq. Bununla bağlı həm beynəlxalq müstəvidə, həm də digər tərəfdaşlarla danışıqlarımız davam etdiriləcək”, deyə Bayramov bildirib və 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda Laçın dəhlizindən istifadə prinsiplərini, eləcə də istiqamətləri göstərilib. Separatçılar başa düşürlər ki, Laçın dəhlizindən onlar Üçtərəfli Bəyanata zidd olan məqsədlər üçün istifadə edirlər, silah-sursat daşımaları ilə danışıqları pozurlar. Bunun qarşısının alınacağı da onlar üçün bəllidir və nəticələrinin də ağır olacağını təsəvvür edirlər deyə qorxu içərisindədirlər.

Bəzi separatçılar fikir formalaşdırmaq istəyirlər ki, Laçın yolunun bağlanılması guya rus sülhməramlılarına hücum deməkdir. Hətta, bununla təşkinlik tapmağa çalışırlar ki, guya belə olduğu zaman Rusiya dərhal məsələyə qarışacaq və onlar üçün də bu hal qurtuluş deməkdir, amma özləri də bilirlər ki, yanılırlar. Təkcə ermənilər yox, hamı yaxşı bilir ki, rus sülhməramlıları Üçtərəfli Bəyanat imzalanan zaman bölgəyə dəvət olunublar və əgər razılaşmalarda pozuntu halları olarsa, Azərbaycan tərəfi məhz razılaşmalara uyğun olaraq bu regionu tərk etmək barədə onlara bildirə bilər. Bir sözlə, separatçılar bilməlidirlər və əgər bilmirlərsə də bilsinlər ki, boş ümidlər bəsləmələri əbəsdir. Əksinə, belə boş ümidləri onları hansı fəlakətlərə sürüklərini də unutmamalıdırlar. Eyni ilə 44 günlük mübarizə zamanı özlərinin mifləşdirdikləri dırnaqarası ”yenilməz” silahlı qüvvələrinə ümid etmələri, yaxud Rusiyadan, böyük qardaş deyib ayaqlarına düşdükləri ruslardan kömək ummaları, bu köməyə bel bağlamaları onlar üçün hansı acı nəticələrə səbəb






olduğunu yada salsalar kifayət edər. Bunları yada salsalar, yəqin ki, boş ümidləri bel bağlamaz, danışıqların ruhuna uyğun hərəkət etməyə məcbur olduqlarını anlayarlar.

Doğrudur, Azərbaycanın Laçın yolunu bağlamaq niyyəti yoxdur və insanların, eləcə də yüklərin daşınmasına nəzarəti gücləndirmək kimi bir haqqı var və ondan da istifadə olunması mümkün haldır, hətta belə görünür ki, labüddür. Sənədlərin, malların, həmçinin həmin malların təyinatının yoxlanılmasında qeyri adi heç nə ola bilməz. Maraqlıdır, əgər Laçın dəhlizindən istifadə edənlər qanunsuz daşımalara yol verməsə, o zaman niyə narahatdırlar və niyə qorxu içindədirlər? Təbii ki, əgər daşınan yüklərin hərbi təyinatlı olduğu üzə çıxdığı zaman onların müsadirə olunacağını və həmin yükləri daşıyanların Azərbaycan qanunları çərçivəsində maksimum cəzalandırılağını bilənlər narahat da olmalıdırlar, hələ qorxmalıdırlar da. Eyni zamanda hər kəs bilməlidir ki, nəinki daşınan mallar, eyni zamanda, vətəndaşlığından asılı olmayaraq, Qarabağa gələn şəxslər, hətta dinc əcnəbi turistlər, erməni siyasətçilər, kim olursa olsun, bu bölgəyə səfərinin məqsədini aydın şəkildə izah etməlidir. Əks təqdirdə Azərbaycan qanunları ilə onları nə gözlədiyini də gözləri önünə almalıdırlar və qorxmalıdır. Azərbaycana səfərləri barədə məlumat verməyən, eləcə də Qarabağda açıq şəkildə separatçılıq əhval-ruhiyyəsini qızışdırmaq niyyətində olan və Azərbaycan əleyhinə təbliğat aparmaq məqsədi güdənlər də nə ilə qarşılaşacaqlarının fərqində olmalıdırlar, özü də öncədən.

Sözsüz ki, Ermənistan silahlı qüvvələrinin Qarabağdakı tör-töküntüləri üçün silah-sursat daşımaq məqsədi ilə dəhlizdən istifadə olunduğu təqdirdə, Laçında nəzarət-buraxılış məntəqəsinin qurašdırılması tam məntiqi addım sayılır. Bunu ermənilər, ələlxüsus da Qarabağ ərazisində qalan separatçılar da başa düşürlər. Başa düşürlər ki, Azərbaycan hakimiyyəti Ağdamdakı Rusiya-Türkiyə monitorinq mərkəzinin mexanizmindən istifadə edə və Laçın dəhlizinin girişi kimi həssas nöqtəni nəzarətə götürə bilər. Ən azında həmin dəhlizdə heç olmasa nəzarət mexanizmi yarada bilər. Bunun mümkünlüyünə, sözügedən dəhlizdə müəyyən tədbirlərin görüləcəyinə şübhə də yoxdur və elə separatçıların narahatlıqlarının da, qorxularının da, nəticədə həyəcan təbili çalmalarının da səbəbi budur. Məsələ burasındadır ki, qorxmaqdansa, ölkəmiz barəsində, Azərbaycan haqqında nağıl danışmaqdansa, dəhşətli hekayələr uydurmaqdansa, separatçılar nəticə çıxarmalıdırlar. Nəticə çıxarmalıdırlar ki, onlar öz separatçı əməllərindən əl çəksələr özləri üçün daha yaxşı, daha məqsədəuyğun olar və onu da nəzərə almalıdırlar ki, rəsmi Bakı həmişə Ermənistanla Qarabağ bölgəsinin erməni etnik əhalisi arasında humanitar və mədəni mübadilənin əleyhinə olmayıb. Təbii ki, yalnız dinc istiqamətdə olan mübadilə qəbuledilləndir və deməli belə də olmalıdır. Əfsus ki, Qarabağda məskunlaşan separatçılar və rəsmi İrəvan Azərbaycanın Azərbaycanın bu böyük, humanitar jestindən sui-istifadə etmək niyyətində olublar və qorxuya düşmələrinə səbəb olan yanlışlıqları da bundadır.

Heç şübhəsiz ki, ermənilərin, ələlxüsus separatçıların qanunsuz şəkildə yük daşımaları barədə Bakının müvafiq sübutları da var və bunu onlar özləri də yaxşı bilirlər. Əks halda, qorxuya düşmək əvəzinə, elə erməni xislətinə uyğun olaraq vay-şüvən qopararldılar. Məsələ burasındadır ki, Ermənistanla Qarabağ bölgəsinin erməni etnik əhalisi arasında humanitar və mədəni mübadiləyə Azərbaycanın imkan verməsi, bir sözlə, hummanitar jestindən sui-istifadə edənlər bilməlidirlər ki, Azərbaycanın səbrini sınamaq onlara baha başa gələ bilər və səbr kəsasının dolacağı zaman onlar üçün həqiqətən qorxulu ola bilər.

***İnam Hacıyev***

# “Fransanın qəbul etdiyi qətnamə yalan və iftiralardan ibarətdir”

“Fransanın Milli Assambleyası gözlənildiyi kimi ”Ermənistana dəstək haqqında” adlanan Azərbaycan əleyhinə növbəti qətnaməni qəbul etdi. Təəssüf ki, yuxarı palatanın bir qədər əvvəl qəbul etdiyi tələbləri təkrarlayan aşağı palatada bir nəfər də olsun ağıllı və ədalət hissini itirməmiş deputat tapılmadı və qətnamə yekdilliklə qəbul edildi. Bu ədalətsiz qətnamənin əvvəlcə Senatda, sonra isə Milli Assambleyada müzakirəsinə imkan verən ”sülhsevər” Fransa hökuməti özünün riyakar mahiyyətini bir daha ortaya qoydu”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, qətnamədə ”Ermənistanın hərbi potensialının artırılması”, ”Azərbaycan və onun tərəfdaşlarının Ermənistanın suverenliyi və ərazi bütövlüyünə hörmət etməsini, həmçinin bütün erməni hərbi əsirlərin qeyd-şərtsiz qaytarılmasını”, ”erməni dini və mədəni mirasının mühafizəsi üçün tədbir görülməsini”, ”Azərbaycan dövlətinə qarşı sanksiyalarla yanaşı həm də



ayrı-ayrı şəxslərə fərdi sanksiyaların tətbiq olunmasını” tələb etməklə yanaşı deputatlar Fransa hökumətindən vasitəçilik ”səylərini” bundan sonra da davam etdirməyi təklif ediblər: ”Son dövrlər artıq adət etdiyimiz kimi yalan və iftiralarla dolu olan bu qətnamənin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinə, habelə bölgədə sülh və əmin-amanlığın bərqərar olması səylərinə xələl gətirilməsi məqsədi daşıdığı heç kimdə şübhə doğurmur. Gözlənildiyi kimi, Fransa hökuməti növbəti dəfə riyakarlıq nümayiş etdirdi və tələsik qətnamənin onun mövqeyini ifadə etmədiyini bəyan etdi. Bununla belə çox böyük təəssüf hissilə qeyd etmək lazımdır ki, Fransanın son addımları Brüsseldə kiçik də olsa müəyyən uğurlarla davam edən sülh danışıqlarına ciddi zərbə vurdu və ”tərəfsiz vasitəçi”liyə iddia edən bu dövlət ilin sonuna qədər imzalanması gözlənilən ”sülh sazişi”nin qarşısını almaq, danışıqlar prosesini pozmaq üçün əlindən gələni etdi”.

***Gülyana***

# Tullantıların təkrar emalının müsbət cəhətləri nədir?

Tullantıların idarə edilməsi sahəsində ən arzuolunmaz üsul onun torpağa basdırılaraq zərərsizləşdirilməsidir. Bu üsuldan istifadəni azaltmaq üçün dünyanın qabaqcıl ölkələrində tullantıdan müxtəlif formalarda faydalanmaq siyasəti həyata keçirilir. Dünyada məişət tullantılarının həcmi ildən-ilə artır. Azərbaycanda da əhalinin rifah səviyyəsinin yüksəlməsi nəticəsində istehlak səbətinin genişlənməsi və əhalinin sayının çoxalması tullantıların artmasına səbəb olur. 2018-ci ildə Almaniya Avropa İttifaqında tullantıların təkrar emalı üzrə lider olub, burada tullantıların faydalı dövriyyəyə qaytarılması payı 66% təşkil edib. Avropada orta hesabla bu rəqəm təxminən 46% təşkil edir. Almaniya İqtisadiyyat İnstitutunun apardığı araşdırmaya görə, ən inkişaf etmiş ölkələr sıralamasında Avstriya (58%), Sloveniya və Belçika (54%), İsveç (48,9%), Fransa (41,7%) və İspaniya yer alıb. Aİ-də ən pis vəziyyət Yunanıstan (17%), Rumıniya (13,3%) və Maltadadır (7,1%). Aparıcı Avropa və Asiya ölkələridir. Qərb ölkələri tullantılardan maksimum dərəcədə təkrar emal və enerji xammalı kimi istifadə etməyə çalışır.



### Bəs ölkəmizdə tullantıların təkrar emalı necə həyata keçirilir?

SİA mövzu ilə bağlı araşdırma edib.

Bu müasir yanaşma Azərbaycanda da tətbiq olunur. Abşeron regionundakı mövcud ekoloji problemlərin planlı sürətdə həll edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 28 sentyabr 2006-cı il tarixində "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" təsdiq edilmişdir. Həmin sənəddə ətraf mühitin mövcud vəziyyətinin bərpasına yönəldilmiş əsas fəaliyyət istiqamətləri öz əksini tapmışdır. Abşeron yarımadasında məişət tullantılarının toplanması, daşınması, yerləşdirilməsi ilə bağlı məsələlərin həll olunması da bu vəzifələr sırasındadır.










"Təmiz Şəhər" ASC-nin əsas vəzifəsi tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsini müasir standartlara cavab verə biləcək səviyyədə qurmaq və idarə etməkdir. Bu prosesi mütəşəkkil qaydada həyata keçirmək və bununla da şəhərin ekoloji vəziyyətini yaxşılaşdırmaq, eləcə də tullantıları təkrar emala cəlb etməklə bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafa nail olmaqdır. Bakı bərk məişət tullantılarının yandırılması zavodu Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində Bakı bərk məişət tullantılarının yandırılması zavodunun yaradılması qərara alınıb. İstehsalat gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri zavod hesab olunur. Zavod dördüncü nəsil (4G) texnologiyalarının tətbiqi ilə qurulub və Avropa Birliyinin ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verəcək şəkildə tikilmişdir.

"Təmiz Şəhər" ASC-dən SİA-ya verilən məlumata görə, illik yandırma gücü 500 min ton olan zavodda tullantıların yandırılması nəticəsində 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin edir.

### Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu

Məişət tullantılarının çeşidləmək və ölkədə təkrar istehsal sahibkarlığını inkişaf etdirmək məqsədilə 2012-ci ildə "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət Tullantılarının Çeşidlənməsi Zavodu istifadəyə verilib. Alman texnologiyası əsasında qurulan bu zavod il ərzində 100 min tona qədər bərk məişət tullantısı qəbul etmək gücündədir. 2012-ci ildən istifadəyə verilən bu zavod ötən müddət ərzində səmərəli fəaliyyət göstərərək, Balaxanı Sənaye Parkının rezidentlərini xammalla təmin etmək istiqamətində xüsusi pay sahibi olmuşdur. Tullantıların təkrar emal sahəsində sahibkarlığın inkişafına dəstək verən zavodda çeşidləmənin aparılması tullantıların ümumi həcmini azaldır və bununla da Balaxanı Sənaye Parkı üçün ucuz xammal bazarı formalaşır. Ölkədə təkrar istehsal prosesinin qurulmasına böyük təkan verən çeşidləmə zavodunun yaradılması təbii ehtiyatlar və enerjiyə qənaətə, ən önəmlisi isə ətraf mühitə mənfi təsirin azaldılmasına xidmət edir.

2017-ci ildə Balaxanı Sənaye Parkının açılışı olmuşdur. İlkin mərhələdə 7 ha ərazi ayrılan sənaye parkına sahibkarların marağının artması nəzərə alınaraq 10,15 hektara çatdırılmışdır. Hazırda Sənaye Parkında qeydiyyatdan keçərək fəaliyyət göstərən 25 rezident 27 istiqamət üzrə təkrar emalla məşğuldur. Sənaye Parkı ərazisində rezidentlər tərəfindən,tikinti materialları, işlənmiş qida və mühərrik yağları, kağız, plastik, rezin, və.s tullantılar təkrar emala cəlb olunaraq yeni məhsul istehsalı həyata keçirilir.

Balaxanı Sənaye Parkının fəaliyyəti dövründə rezidentlər tərəfindən bura 49,1 milyon manata qədər investisiya qoyulub və 1000-dən çox yeni iş yeri açılmışdır. Fəaliyyətə başladığı vaxtdan indiyə qədər Balaxanı Sənaye Parkında təxminən 145,4 milyon manatlıq məhsul istehsal olunub və 17,3 milyon manat dəyərində məhsul xarici ölkələrə ixrac edilib.

Dayanıqlı inkişaf prinsipləri əsas götürülərək müasir texnoloji yenilikləri tətbiq etməklə ətraf mühit mühafizəsi standartlarına uyğun fəaliyyət göstərən Balaxanı Sənaye Parkı bu istiqamətdə sahibkarlıqla məşğul olmaq istəyənlər üçün çox münbit mühitdir. Burada fəaliyyət göstərən rezidentlər 10 il müddətinə mənfəət,torpaq, əmlak vergisindən azad edilir. Eyni zamanda istehsal məqsədi ilə idxal edilən texnoloji avadanlıqlar 10 il müddətinə ƏDV-dən, 7 il müddətinə isə idxal rüsumundan azaddır.

***Havar Şəfiyeva***

# "Laçının azad edilməsi Zəfər tariximizin ən önəmli məqamlarından biri oldu"

"İki il bundan öncə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz Azərbaycanın malik olduğu imkanların təqdimatında mühüm rol oynadı. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə rəşadətli Ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi, həmrəyliyi sayəsində 30 illik işğala son qoyuldu. Azərbaycan tarixi ədaləti bərpa etdi, Ermənistana və 30 il işğalçıya dəstək olan bəzi dövlətlərə sübut etdi ki, ədalət və beynəlxalq hüquq mövcuddur, sadəcə bunların tətbiqi üçün vacib mexanizm olmalıdır. Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra qarşıda dayanan əsas hədəf bu sənəddən irəli gələn öhdəliklərin yerinə yetirilməsi idi.

İkinci Qarabağ müharibəsində əldə etdiyimiz Qələbədən sonra imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci ilin 1 dekabr tarixində Laçın rayonu heç bir güllə atılmadan, şəhid verilmədən Azərbaycana qaytarıldı. Bundan əvvəl, noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycan tərəfindən nəzarətə götürüldü. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev avqustun 26-da bu paylaşımı etdi: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!". Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Laçın rayonu 18 may 1992-ci



ildə işğal olunub: "Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi bu əraziyə Laçın dəhlizi vasitəsilə daxil olub. Laçın rayonunun işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalmış, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. Rayonun 79.1 min nəfərdən ibarət olan əhalisi respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb."

Baş redaktor vurğulayıb ki, qürurverici haldır ki, iki ildir torpaqlarımızın işğalı günlərini deyil, düşmən tapdağından azad edildikləri tarixləri qeyd edirik: "Bu tarixlər bütün məqamları- Zəfərə gedən yolu, Qələbəmizi şərtləndirən amilləri və bundan sonrakı dövrdə hədəfləri özündə ehtiva edir. Müzəffər Ali Baş Komandan 2020-ci ilin 1 dekabr tarixində Laçının işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən bəyan etmişdi ki, böyük sevinc hissi ilə Laçın rayonunun işğaldan azad olunduğunu bildirirəm. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq."

"Bu günümüzün əsas hədəfi işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərini müasir tələblər səviyyəsində həyata keçirmək, soydaşlarımızın Böyük Qayıdışını sürətləndirməkdir" söyləyən Vüqar Rəhimzadə bildirib ki, bu günlər digər işğaldan azad edilmiş ərazilərimiz kimi, Laçın da həyatının yeni dövrünü yaşayır: "Həm ayrı-ayrı ərazilərimizin bərpası ilə bağlı sərəncamlar imzalanır, eyni zamanda, ümumilikdə Dövlət proqramları və Milli Prioritetlər təsdiqlənir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı əsasında dünya hərb tarixində ilk dəfə olaraq Azərbaycan müharibə bitdikdən sonra dərhal bu torpaqlarda bərpa-quruculuq işlərinə start verdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azad olunmuş Laçın rayonuna 2021-ci ilin 14 fevral tarixində reallaşdırdıqları səfər dövlət başçısının Güləbird kəndində Azərbaycan Bayrağını ucaltması ilə tarixə yazıldı. Bu mühüm hadisə Azərbaycanın Zəfər tarixinin ən önəmli məqamlarından biri oldu. Görülən işlər və büdcədən ayrılan vəsaitlər onu göstərir ki, işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması dövlətimizin iqtisadi siyasətinin əsas tərkib hissəsidir. Cənab İlham Əliyevin son iki ildə Laçına reallaşdırdığı 4 səfərin hər biri yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalıb. Belə ki, Laçın rayonunda generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Rayonun yol-nəqliyyat infrastrukturu yenidən qurulur. Prezident İlham Əliyevin Sərəncamına əsasən tikilən və uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda işlər sürətlə davam etdirilir."

Baş redaktor diqqəti işğaldan azad edilmiş ərazilərimizdə artıq istifadəyə verilən Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarına, eyni zamanda, tikintisi davam edən, 2025-ci ildə işə salınması nəzərdə tutulan Laçın Beynəlxalq Hava Limanına yönəldib: "2025-ci ildə Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır. İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. Burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək və onun turizm potensialının artırılmasına səbəb olacaq. Laçının yenidən qurulmasına xüsusi önəm verən Prezident İlham Əliyevin "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında" Sərəncamı da bu bölgələrdə layihələndirilmə və tikinti işlərinin həyata keçirilməsinə xidmət edir."

Vüqar Rəhimzadə vurğulayıb ki, Prezident İlham Əliyevin cari ilin sentyabrın 21-də Laçına səfəri bir çox tarixi məqamları ilə yadda qaldı: "Bu səfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq" müjdəsindən sonra reallaşdırılıb. Laçın şəhərinin mərkəzində Azərbaycan Bayrağı ucaldıldıqdan sonra dövlət başçısı çıxışında bu çağırışı etdi: "Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir. Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

"İki sahil" qəzetinin baş redaktoru bu ümumiləşdirməni aparıb ki, Laçında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri laçınlıların qısa müddətdə öz doğma yurd-yuvalarına qayıdışlarını yaxınlaşdırır. Laçınlıların birinci qrupunun öz doğma şəhərinə gələn ilin sonuna qədər qayıtması nəzərdə tutulub. Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" hədəflərə qısa zamanda nail olmağa geniş imkanlar yaradacaq. Həmçinin Böyük Qayıdış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də əsas hədəflərdən biridir.

# "Fransa, əslində, radikal separatizmi dəstəkləyir"

"Fransa Senatının ardınca Milli Assambleyasının da qəbul etdiyi qərəzli qətnamə Parisin ölkəmizə qarşı məkrli siyasətə başlamasını açıq şəkildə sərgiləyir". Bu sözləri SİA-ya açıqlamasında deputat Sevil Mikaylova deyib.

Onun sözlərinə görə, bu qətnamə də əvvəlki sənəd kimi beynəlxalq hüququn norma və prinsiplərinə ziddir, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz yanaşmadır: "Sual doğuran məqam isə Fransanın niyə görə məhz indi dəyərləri yadına salması, işğalı və ölkələrin ərazi bütövlüyünə təcavüzün yol verilməz olduğunu "dərk etməsi"dir.





30 il Azərbaycana qarşı siyasət aparan, 20 faiz əraziləri işğal atlında saxlayan, mütəmadi olaraq Azərbaycana qarşı ərazi iddiaları səsləndirən, "Yeni torpaqlar uğrunda, yeni müharibə" devizi ilə çıxış edən Ermənistana qarşı Fransa tərəfindən heç bir irad göstərilmədi. Buna görə də Fransanın humanizm və ədalətdən danışmağa mənəvi haqqı yoxdur".

Deputat sözlərinə belə davam edib: "Fransa hələ də dekolonizasiya kateqoriyasına aid edilən bir sıra əraziləri qanuni sahiblərinə qaytarmır. Fransanın uzun illər davam edən işğalçılıq, talançılıq siyasəti bu gün formasını dəyişsə də, eyni məzmunda davam edir. Fransanın tarixi öz xalqına belə utanc gətirən cinayətlərlə doludur.

Öz ölkəsinin maraqlarını bir ovuc erməni lobbisinin maraqları üzərində qurması, milli maraqlarını erməni siyasətinə qurban verməsi Fransa üçün utancverici dir. Belə çıxır ki, Fransa uzunillik xarici və daxili siyasi mübarizədə qazandığı dəyərləri ayaqlar altına atır. Terrorçu, işğalçı, təcavüzkar siyasət aparan ölkəni hər cür dəstəkləmək və özünə ən yaxın tərəfdar seçməklə Fransa əslində dünyanın mübarizə apardığı radikal separatizmi dəstəkləyir. Bununla da Avropa dəyərlərindən uzaqlaşdığını sərgiləyir. Fransa parlamentarilərinin bu addımları bölgədə sülh prosesini zərbə altına qoyur, Cənubi Qafqazda təhlükəsiz mühitin formalaşmasına mane olur.

Fransalı parlamentarilərə bildiririk ki, ikili standartlar və selektiv yanaşma ağızdolusu danışdıqları və təbliğ etdikləri demokratik dəyərləri aşındırıb. İndi siz neokolonizm, neofaşizm, islamafob, irqçi, millətçi və türkəfob ideyaların qatı təbliğatçısına çevrilmisiniz. Apardığınız bu məkrli siyasət Avropanın təhlükəsizliyinə qarşı yönəlib və son nəticədə özünüzə qarşı çevriləcək.

Bütün bu cəhdlər dövlətimizin qətiyyətini sarsıda bilməz, Azərbaycan dövlətinin prinsipial mövqeyi dəyişməz olaraq qalır və Azərbaycanın irəli sürdüyü 5 şərt əsasında imzalanacaq sülh müqaviləsi Cənubi Qafqazda davamlı sülhü təmin edə bilər".

*Ayşən Vəli*

TƏRS BAXIŞ+ÖZƏL

# İran-Rusiya-Qarabağ: qırmızı xətt keçildi!!!

*Və ya Azərbaycanın sərt addım atmaqdan və qətiyyətli qərar verməkdən başqa çıxış yolu qalırmı?*

**Əslində, öz daxilində baş qaldırmış və haqlı əsaslara söykənən qiyam və üsyanların qarşısıalınmaz bir vəziyyətə doğru inkişaf etməsini bir kənara qoyub Azərbaycanın ərazilərində kirli maraqlarını icra etməyə cəhd edən İranın növbəti addımı Azərbaycanın ictimai-siyasi və s. rəyi tərəfindən hiddətsiz qarşılana bilməzdi. Daha doğrusu, İranın ermənipərəstlik marağının bir qədər də irəliyə gedərək regional tərəfdaşı olan Rusiya vasitəsi ilə qırmızı xətti keçməsi səbr kasasını aşırıb-daşırdı.**

Bəli, yanılmadınız! Söhbət hələ ötən gündən etibarən ölkə mediasında Rusiya sülhməramlıları kontingentinin (RSK) Qarabağda müvəqqəti yerləşdikləri ərazilərə 14 xarici ölkə vətəndaşının qanunsuz, yəni rəsmi Bakının icazəsi olmadan buraxılmasından və hazırda həmin fərdlərin İranın təxribat-diversiya qruplarına mənsub olmaları ilə bağlı səsləndirilən iddialardan gedir.

Və bir daha bəli, biz çox istərdik ki, həmin məlumat qeyri-dəqiq olsun və öz təsdiqini tapmasın. Amma həmin məlumatın öz təsdiqini tapacağı halda vəziyyət tamamilə dəyişilir - bu onu göstərir ki, Tehran rejimi artıq mövcud olan bütün qırmızı xətləri keçir və üstəlik ona bu məsələdə yardımçılıq edən RSK da Qarabağdakı mövcudluğunu BÖYÜK SUAL altında qoyur. Bunun da izahı var. Çünki İrana məxsus TIR-ların Laçın şəhəri və Zabux-Sus kəndləri rusiyalı sülhməramlıların nəzarətləri altında olarkən arda-arda Xankəndiyə buraxılmalarının da arxasında RSK komandanlığının əlinin olması dəfələrlə sübuta yetirilmişdi. Və biz burada Ermənistanın da sözügedən məsələdəki oyunbazlığına əsla göz yuma bilmərik.









### Erməni terrorçularına yardım məqsədi ilə gəldikləri şübhə doğurmayan iranlı terrorçuların şəxsiyyətlərinin müəyyən edilməsi üzərində işlər aparılır

Beləliklə, iddialara görə, Azərbaycanın Qarabağ iqtisadi regionunun ərazisinə buraxılan 14 nəfər İran İslam Respublikasının vətəndaşlarıdır və onlar noyabrın 24-ü tarixində, günorta saat 13-14 radələrində eyni avtomobildə sülhməramlıların postunu keçərək Xankəndiyə gəliblər və nə qədər maraqlı görünsə də hazırda da oradadılar. Qaldı ki, hansı məqsədlə və planlar əsasında, çox yəqin ki, bu barədə də növbəti ifşa edilən məlumatlarda qeyd ediləcəyik.

Ancaq daha bir iddia edilən fakt budur ki, iranlı təxribat-diversiya, daha dəqiq desək, terror qrupu RSK-nın yaşıl işıq yandırdıqları postdan seriya 34-QA-444 nömrəli "Mersedes-Benz" avtomobili ilə keçiblər. Artıq erməni terrorçularına yardım məqsədi ilə gəldikləri şübhə doğurmayan iranlı terrorçuların şəxsiyyətlərinin müəyyən edilməsi üzərində işlərin aparıldığı da müxtəlif mənbələr tərəfindən bildirilməkdədir. Belə ki, 14 nəfər təxribatçı-diversiya qrupu üzvünün 12-si İranın eyni bölgəsindən- ölkənin cənub-qərbindəki İzeh şəhərindən olduqları məlum olub. Və maraqlıdır ki, İzehin daxil olduğu Huzistan vilayətinin əhalisi arasında ermənilər çoxluq təşkil edirlər və orada əsas işlək dillər arasında erməni dili öncüllük təşkil edir.

### Qarabağda qalmış separatçı-quldur tör-töküntülərinə İran istehsalı olan silah-sursatdan istifadə üçün təlim keçəcəkləri bildirilir

Digər informasiyalara görə, iranlı terrorçular RSK-nın müvəqqəti nəzarəti altında olan ərazilərdə separatçılara və Ermənistandan gələn qanunsuz terrorçu dəstələrə terror-diversiya təlimləri keçmək, eləcə də konkret diversiyalar hazırlamaq üçün göndəriliblər. Üstəlik, onların Qarabağda qalmış separatçı-quldur tör-töküntülərinə İran istehsalı olan silah-sursatdan istifadə üçün də təlim keçəcəkləri bildirilir. Nəticədə isə RSK-nın Qarabağa buraxdıqları həmin şəxsərin İranın xüsusi-xidmət orqanlarının təmsilçiləri olduğu üzə çıxır. Mümkün ehtimallara görəməhz İzeh şəhərində İran xüsusi xidmət orqanlarının terror-diversiya üzrə ixtisaslaşan məxfi bazası yerləşir. O cümlədən, Ermənistanın da təxribat-diversiya qruplarının hazırlanması istiqamətində sözügedən bazada zaman-zaman təlimlərin keçirilməsi barədə informasiyalar mövcuddur. Necə deyərlər, qarşılıqlı əməkdaşlıq tam sürətlə inkişaf edir və bu əməkdaşlıqlar son anda Qarabağda terrorların, təxribat-diversiya planlarının realizəsi məqsədi ilə öz nəticəsini tapmağa hesablanır. Yəni praktiki cəhətdən...




### Tehran rejimi hazırda erməni tərəfinin istəyi ilə rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan əraziləri terror yuvasına döndərmək planı üzərində işləyir

Yalnız 44 günlük müharibədəki Zəfərimizdən uzun müddət keçəndən sonra Azərbaycana boğazdan yuxarı "təbrik mesajı" ünvanlayan İranın kirli məqsədləri istər ondan əvvəl, istərsə də sonrakı müddətdə, xüsusilə də son proseslərdə özünü daha qabarıq fonda təsdiq edir. Artıq fakt budur ki, Tehran rejimi hazırda erməni tərəfinin istəyi ilə rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan əraziləri terror yuvasına döndərmək planı üzərində işləyir. İran-Rusiya-Qarabağ qırmızı xətti də məhz bu anlamı daşımaqdadır.

***Rövşən RƏSULOV***

***PS: Beləliklə, Tehran rejiminin aşkar ermənipərəstliyi, həmçinin ermənisifətliyi göz önündədir və bununla paralellik təşkil edən, həm də Bakının etibarından, etimadından sui-istifadə edən RSK etimadsızlığı da danılmazlığa çevrilib. Bu fakt öz təsdiqini taparsa (əslində buna şübhə də yoxdur-R.R.) qarşı tərəflər bu suallara cavab verməlidirlər: Tehran rejiminin təxribatçı-diversiya qrupları Azərbaycan ərazisinə hansı məqsədlərlə gəliblər? Onları bizim ətazilərimizə hansı qaranlıq, ya da aşkar dairələr göndərib? Kremlin Vardanyan missiyası azmış kimi indi də iranlı terrorçularla gizli iş birliyinin arxasında daha hansı maraqlar dayanır? Onlardan RƏSMİ İZAHAT GÖZLƏYİRİK!***

---

# "Bu, günümüzün aktual məsələlərindəndir"

**"Şübhəsiz ki, əlilliyi olan şəxslərin müəyyən kateqoriyaları var və onların arasında ayrı-seçkiliyin olması bizim qanunlarımıza görə qadağandır. Bu insanlarının təhsilinin inkluziv şəkildə həyata keçirilməsi, imkan daxilində sağlam uşaqlarla təhsilinin təşkil edilməsinə imkan verilməlidir və bu da gələcəkdə bu şəxslərin cəmiyyətə inteqrasiyası da asanlaşdıracaq". Bu fikirləri Milli Məclisin deputatı Musa Quliyev bildirib.**



DEPUTAT ŞƏRH ETDİ



Onun sözlərinə görə, bu şəxslərin gələcəkdə işlə təmin edilməsi də vacib məsələdir və dövlətin diqqət mərkəzindədir: "Əlilliyi olan şəxslərə qayğı və diqqətin göstərilməsi, onların müalicəsi, reablitasiyası, təhsili, cəmiyyətə intaqrasiyası və məşğulluğunun təmin olunması Azərbaycan dövlətinin daxili siyasətində həyata keçirilən mühüm addımlardır. Azərbaycan əlilliyi olan şəxslərin hüquqları ilə bağlı BMT konversiyasını radifikasiya etmiş və milli qanunvericiliyimizi də BMT konversiyasına uyğunlaşdıraraq əlilliyi olan şəxslərin hüquqları haqqında qanun qəbul etmişdir. Bu qrupdan olan şəxslərə həm dövlətin, həm də cəmiyyətin qayğısı vacibdir və daimi olmalıdır.

Bu şəxslərin gediş-gəlişinin asanlaşdırılması üçün pandusların qoyulması, yaşayış binalarında, liftlərdə əlil arabalarına görə uyğunlaşdırılması kimi məsələlər də vacib məişət məsələləridir. Əsas məsələ əlilliyi olan şəxslərin müavinət alması, pensiya təminası və bununla paralel onların məşğulluğunun həyata keçirilməsidir. Bu işlər də ölkəmizdə qaydalara uyğun olaraq həyata keçirilir. Xüsusilə də Azərbaycan Prezidentinin göstərişi ilə fəaliyyət göstərən özünəməşğulluq proqramında əlilliyi olan şəxslərə üstünlük verilir. Əlilliyi olan şəxslərin yeni peşələrə cəlb edilməsi də bu gün aktual məsələlərdəndir. Xüsusilə II Qarabağ müharibəsində sağlamlığını itirmiş qazi əlillərin sosial müdafiəsinin yaxşılaşdırılması, onların məişət şəraitinin yaxşılaşdırılması da dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu qəbildən olan insanların ən müasir reablitasiya vasitələri ilə təmin olunması, müasir protezlərlə təmin edilməsi, sanatoriya-kurort müalicəsinə cəlb olunması, Azərbaycanda müalicəsi mümkün olmayan qazilərin xarici ölkələrdə müalicəsinin davam etdirilməsi, matorlu arabalarla və minik maşınları ilə təmin edilməsi, mənzillərlə təmin edilməsi məsələsi də dövlətimiz tərəfindən yerinə yetirilir. Ümumiyyətlə dövlət siyasətinin əsas məqsədi ayrı-seçkiliyə yol vermədən bütün əlilliyi olan şəxslərin Azərbaycanın digər vətəndaşları ilə bərabər hüquqlara nail olması və özlərini cəmiyyətə faydalı üzvləri kimi hiss etməsidir".

***Abutel İlhamqızı***

# Makron-Nikol
## cütlüyünün "ölünü diriltmək" şakəri

**İkinci Qarabağ müharibəsinin başa çatmasından iki il ötsə də Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasına hələ də əngəllər törədilir. Məğlub kimi kapitulyasiya aktını imzalamağa məcbur qalsa da başqalarının başına çəkdiyi tumardan məst olub hələ də sülh sazişinin imzalanmasını müxtəlif bəhanələrlə yubadan Ermənistan özünə məzar qazır. "Dağlıq Qarabağ", "status" məhfumlarının tarixdən silindiyi, qalib Azərbaycanın bölgədə prosesləri idarə etdiyi indiki məqamda Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən başqa çarəsi qalmadığını özü kimi havadarları da çox yaxşı bilirlər.**







Vətən müharibəsindən sonra Belçikada Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən 5, Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə baş tutan 3 görüşdə ölkəmizin sülh sazişinin imzalanması ilə bağlı təkliflərinin tam dəstəklənməsi də Qarabağın Azərbaycanın ərazisi olduğunun etirafıdır. Görüşlərdə qəbul olunan bəyanatlarda Qarabağın Azərbaycanın ərazisi olduğunu təsdiqləyən Ermənistanın baş naziri Nikol Paşinyan yenə də əvvəlki adətlərinə uyğun olaraq sözündənqaçma əməlini davam etdirir. Xatırladaq ki, Praqada təşkil olunan "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində keçirilən dördtərəfli danışıqlarda da eyni mənzərə yarandı. Heç vaxt müstəqil xarici siyasəti olmayan Ermənistanın havadarı Fransa Prezidenti Emmanuel Makron özünün "dövlətçilik təcrübəsinin" də Paşinyan səviyyəsində olduğunu hərdəmxəyallığı ilə ortaya qoydu.

Fransa Senatının 15 noyabr 2022-ci ildə qəbul etdiyi "Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi, 9 noyabr 2020-ci il tarixli atəşkəs razılaşmasına riayət etməsi tələbi və iki ölkə arasında dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş bütün təşəbbüslərin təşviq edilməsi" adlı qərəzli qətnamə Makronun məkrli simasını göstərdi. Ölkəmizi "təcavüzkarlıqda" ittiham edən fransız senatorların "Azərbaycana qarşı embarqo qoyulması", Azərbaycanın Qarabağ bölgəsində ermənilərin yaşadıqları ərazilərdə Fransanın "humanitar bürosu"nu yaratmaq tələbləri təxribat olmaqla, eyni zamanda heç bir hüquqi əsası olmayan sərsəmləmələr idi.

ATƏT-in artıq çoxdan dəfn edilmiş ölü Minsk qrupunu diriltməyə çalışsa da əli boşda qalan, Praqada keçirilən dördtərəfli görüşdən sonra siyasi və diplomatik səmtini itirən Fransa Prezidentinin qeyri-etik bəyanatla çıxış edərək Azərbaycan haqqında sərsəm fikirlər səsləndirməsi üzrü günahından betər təəsüratı yaratdı. Onun Frankofoniya təşkilatının 18-ci Zirvə Görüşü çərçivəsində sərsəmləməsi dövlət başçısı adına yaraşmayan qeyri-səmimi hərəkət idi.

Keçmiş Minsk qrupunun "sülhyaratma missiyasına" ehtiyac qalmadığını "Azərbaycan xoş məram göstərərək, Fransa Prezidentinə bu görüşdə iştirak etməyə icazə verdi. Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş məramа baxmayaraq, Praqadakı görüşdən demək olar bir həftə sonra Fransa Prezidenti təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Fransa Prezidenti bəyanatlarında Azərbaycanın dəhşətli müharibə törətdiyini bildirib, bununla da faktları manipulyasiya edərək, Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib. Azərbaycan beynəlxalq səviyyədə tanınan öz ərazisində müharibə aparırdı. Qarabağ bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Biz özünümüdafiə hüququndan istifadə edərək, ərazi bütövlüyümüzü güc hesabına bərpa etdik" sözləri ilə bildirən Prezident İlham Əliyevin bu xəbərdarlığı Ermənistan kimi qana həris Makrona həddini bildirmək, qırmızı xətti keçməmək çağırışıdır.

Vətən müharibəsindən əvvəl "Ermənistanın tanklarının Bakının küçələrində gəzəcəyini lovğalıqla bildirən Nikol kimi Makronun da xəyalları Xəzərdə batdı. Dövlət başçımızın sözləri ilə deyilsə bu təkəbbürlü şərhlər başqa mənada reallığa çevrildi. Erməni tankları Bakının küçələrinə gəlib çıxa bildi. Zəfər paradında məğlub ölkənin "hərbi qüdrəti"nin məğlubiyyət rəmzi kimi nümayiş etdirildi. İndi isə onlar Hərbi Qənimətlər Parkında Ermənistanın üzqarası kimi xəcalət çəkirlər.

Məğlub olsalar belə hələ də "miatsum" xəstəliyi sağalmayan Ermənistanın guya "Azərbaycanla Qarabağla əlaqədar danışıqların aparılacağı" gözləntilərinin də əsası yoxdur. "Biz əvvəldən demişdik ki, bu, qətiyyən mümkün deyil. Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir" sözləri ilə ermənilərin bu xəyallarını da havaya sovuran Prezident İlham Əliyev dekabrın 7-də keçirilməsi nəzərdə tutulan görüşə də münasibətini bildirib: "Növbəti görüş dekabrın 7-də Brüsseldə keçirilməli idi. Çünki son görüşdə biz noyabr ayında görüşməyə qərar verdik. Lakin sonra - oktyabrın sonunda Prezident Putin Soçidə görüş təyin etdi. Ancaq dünən Hikmət Hacıyev mənə məlumat verdi ki, Prezident Şarl Mişelin ofisindən onunla əlaqə saxlayıblar. Bildiriblər ki, Paşinyan görüşə bir şərtlə razılıq verib ki, Prezident Makron da orada iştirak etsin. Təbii, bu da o deməkdir ki, Praqadan sonra baş verənlər səbəbindən o görüş keçirilməyəcək."

Senatın adı çəkilən tamamilə qəbuledilməz, kağız parçası effekti yaradan məlum qətnaməsindən, Fransanın Frankofoniya Sammitində Azərbaycana qarşı əsassız iddialarından sonra Makronun Azərbaycanla Ermənistan arasında sülh danışıqlarında iştirakı klounluq xəstəliyidir. Bir məqamı da nəzərə alaq ki, İkinci Qarabağ müharibəsindən sonra artıq ölü qurum adlandırılan Minsk qrupunun Rusiyadan, Amerika Birləşmiş Ştatlarından olan həmsədrləri heç vaxt bu "üçlüyün" fəaliyyətinin canlandırılması ilə bağlı fikir bildirməyiblər. "Üç müşkotyor"un həm də Dartanyanı olan Fransanın suyu bulandırmaq, sülh prosesini pozmaq cəhdləri o deməkdir ki, Brüssel görüşü baş tutmasın, sülh razılığı ilə bağlı sənəd imzalanmasın.

"Çünki sülh prosesi sülh sazişinin imzalanmasına gətirib çıxaracaq və onlar etiraf etməli olacaqlar ki, Qarabağla bağlı heç nə yoxdur və istər Moskvada, istər Soçidə və ya Brüsseldə qəbul edilən bütün sənədlərdə Qarabağa istinad edilmir. Ona görə də ola bilsin ki, Ermənistan tərəfi heç bir nəticəyönümlü ssenari olmadan prosesi sonsuz etmək üçün işğal zamanı da istifadə etdiyi köhnə taktikadan istifadə etmək qərarına gəlib. Beləliklə, əgər bu onların seçimidirsə, biz nə edə bilərik. Biz onları imzalamağa məcbur edə bilmərik. Bu o deməkdir ki, sülh müqaviləsi olmayacaq, bu o deməkdir ki, sülh olmayacaq və sülh yoxdursa, onda nə olacaq?!" sözləri ilə Makron-Nikol işbirliyinin məkrini açıqlayan Prezident İlham Əliyev qalib, söz sahibi olduğunu siyasi iradəsi, qətiyyəti ilə təsdiqləyir. "Nə olacağın" cavabını isə yenə də "dəmir yumruq" verəcək.

***X. İsmayılqızı***

---

# "Laçının azad edilməsi Azərbaycanın gücünü, dönməz iradəsini göstərdi"

"Azərbaycanın Laçın şəhəri 2 il əvvəl 10 noyabr Bəyannaməsi ilə işğaldan, düşmən tapdağından azad edildi. Bu əlbəttə ki, 44 günlük müharibənin əhəmiyyətli nöqtələrindən biri idi". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva bildirib. Onun sözlərinə görə, 8, 10 noyabr zəfərimizin davamı idi: "Əlbəttə ki, Laçının azad edilməsi bir daha Azərbaycanın sarsılmazlığını, gücünü, dönməz iradəsini göstərdi. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın hər qarış torpağını azad edənə qədər mübarizəsini davam etdirəcəyini xalqımız çox gözəl bilirdi.



***DEPUTAT ŞƏRH ETDİ***



44 günlük müharibə zamanı Ali Baş Komandanın verdiyi tapşırıqlar, təlimatlar da bunun bariz göstəricisidir. Bu gün Laçın da Azərbaycanın digər bölgələri kimi azaddır. Digər işğaldan azad olunan bölgələr kimi biz bu gün Laçında da quruculuq işləri görürük. Laçın artıq öz vətəndaşlarını qəbul etməyə hazır vəziyyətə gətirilir. Bu bizim üçün böyük bir qürur qaynağıdır. Bütöv Azərbaycan uğrunda, əzəli torpaqlarımız uğrunda mübarizəmiz bundan sonrakı dövrlərdə də davam edəcək. Bunu qarşı tərəf də, Azərbaycana diş qıcayan hər kəs bilsin. Bilsinlər ki, Ali Baş Komandanımızın da dediyi kimi dəmir yumruq yerindədir. Azərbaycana qarşı yanlış bir hərəkət etmək istəyənlərə qarşı dəmir dəmir yumruq hər zaman hazırdır. Qələbəmiz bir daha mübarək olsun!"

***Abutel İlhamqızı***

**SİYASİ RAKURS+ÖZƏL**




# Laçın dəhlizindən çıxan görünməyən tüstü

*Yaxud, proseslər haraya doğru aparır?*

***Laçın dəhlizi istiqamətində cərəyan edən olaylar artıq bir-birini get-gedə daha tez-tez əvəzləməyə başlayıb. Hətta daha açıq desək, hadisələr antiterror əməliyyatlarının başlanması istiqamətinə doğru inkişaf etməkdədir. Buna isə bir sıra və əsaslı səbəblər yaranıb və əslində həmin səbəblər məhz Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti olaraq, eləcə də rəsmi Bakının icazəsi ilə, o cümlədən, rəsmi mandat verilmədən Qarabağ ərazisinə daxil olduqları vaxtdan mövcuddur.***

## Bakı artıq öz sözünü deyib - səbrimiz tükəndi!

Xatırladaq ki, bir neçə gün əvvəl Azərbaycan DTX-sı yeni Laçın yolu vasitəsi ilə separatçılara hərbi texnikaların daşınması barədə məlumat vermişdi. Bu məlumatın ardınca isə Azərbaycanın XİN başçısı Ceyhun Bayramov Sarıbaba yüksəkliyində 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalarla bağlı şərhində bildirib ki, həmin minalar yalnız RSK-nın Laçın dəhlizində nəzarət etdiyi ərazilərdən keçirilə bilər. Yəni Ermənistanın Qarabağ separatçılarına hərbi texniki təchizatlar göndərməsi də məhz Laçın dəhlizi vasitəsi ilə reallaşdırılır və əlbəttə ki, bu faktlar daha əvvəl qəbul edilmiş üçtərəfli bəyanatın müddəalarına tamamilə zidddir və söz yox ki, bütün bunlara birdəfəlik son qoyulmağın vaxtı çatıb. Əbəs deyil ki, Ceyhun Bayramov şərhində onu da xüsusilə qeyd edib ki, Azərbaycan bunun üçün lazım olan bütün vacib addımlarını atacaq!

## RSK-nın biznesmen komandanı Volkov...

Yeri gəlmişkən, Sarıbabada aşkar edilən erməni minaları ilə bağlı RSK-nın komandanlığına, şəxsən Volkova da məlumat verilib və həmin minalar ona göstərilib. Həmin Volkova ki, bir sıra faktlara əsasən o öz vəzifəsindən sui-istifadə edərək RSK-nın nəzarət etdiyi ərazilərdə sözün əsl mənasında biznes açıb. Başqa tərəfdən, Rusiya tərəfi onlara təqdim edilən faktlara heç bir rəsmi münasibət açıqlamayıb necə ki, 44 günlük müharibənin son günlərində Şuşaya atılan "İsgəndər" raketlərində olduğu kimi...

Təbii ki, bütün bunlardan sonra Bakının prosesləri sadəcə izləməsi yolverilməz idi və nəticədə lazım olan bəyanatlar irəli sürüldü. Bu gün erməni tərəfinin tələslə qurcalanmağa başlamasının, hadisələrin ciddi məcraya doğru yönəlməsini anlamasının da səbəbləri məhz budur.

## Edmon Marukyanın sərsəm iddiaları ermənilər tərəfindən də ciddiyə alınmayıb

Misal üçün, xüsusi işlər üzrə səfir kimi təqdim olunan Edmon Marukyan sosial şəbəkələrdə öz təbirincə, yaxud "erməni bicliyi" əsasında isbat eləməyə çalışıb ki, sən demə Azərbaycan tərəfi Ermənistanda basdırılmış minaları əvvəlcə çıxarıb, sonradan onları öz ərazisində - Sarıbaba yüksəkliyində basdırıb ki, İrəvana və "əzabkeş" Qarabağ separatçılarına qarşı daha açıq şəkildə ittihamlar irəli sürsün (?!-R.R.) Onun bu feyk ehtimalı nə qədər maraqlı görünsə də, elə erməni seqmentinin özü tərəfindən ələ saındı... Və təbii ki, Azərbaycan tərəfi də bu saxta, böhtan xarakterli ittihamı əsla qəbul edə bilməzdi!

Və məhz bundan sonra Xankəndidə vargəl edən separatçılar anlamağa başladılar ki, bu aş o aşdan deyil və qondarma "dqr"in əsas sözçülərindən biri - "xin başısı" qismində təqdim olunan David Babayan bir sırta "bəyanatlarla" çıxış etməyə başladı...






**<u>Babayanın dediklərindən belə nəticə hasil etmək mümkündür:</u> erməni separatçıları Laçın dəhlizində çıxan görünməyən tüstünü görməyə, hətta o tüstünün qoxusunu da duymağa başlayıblar**

Məsələn, sən demə Azərbaycanın Laçın dəhlizini bağlaması "artsaxa" hücum, həm də RSK-nın "kürəyindən vurulan zərbə" kimi anlaşılacaqmış və eyni zamanda, həmin tədbirlərin icrası ümumilikdə "geosiyasi cəhətdən ağır nəticələrə" gətirib-çıxaracaqmış... (?!-R.R.) Gəlin təkcə Babayanın bəzi fikirlərinə diqqət çəkək. "Mən beynəlxalq ictimaiyyətin bütün bunlara etinasız yanaşacağını düşünmürəm", deyən Babayan daha sonra iddia edib ki, sən demə Laçın dəhlizi məntiqcə yeganə dəhlizdir ki, nəinki Qarabağı ümumilikdə xarici aləmi Ermənistanla birləşdirir. Hələ bu harasıdır? Separatçı-quldur bir az da irəliyə gedərək həyasızcasına bəyan edir ki, Laçın dəhlizi çox darıymış və Azərbaycan hərbçiləri müxtəlif "təxribatlara" əl ata bilərmişlər və bu "təxribatlar" RF sülhməramlılarına da qarşı törədilmiş kimi qiymətləndirilə bilər (???!!!-R.R.)

İndi isə Babayanın ən "əsas arqumentinə" diqqət edək. SİTAT: "Mən ümid edirəm və inanıram ki, sülhməramlılar reaksiya göstərəcəklər, çünki bu faktiki şəkildə müharibəyə, qətliam və genosidə tərəf atılan addım olacaq. Onlar necə reaksiya göstərə bilməzlər? Biz çox istərdik ki, "artsaxda" rusiyalı sülhməramlıların sayları artırılsın, amma insan resurslarını artırmaq olmazsa, heç olmasa təhlükəsizliyi texniki vasitələrlə gücləndirmək olar".

Beləliklə, Babayanın dediklərindən belə nəticə hasil etmək mümkündür ki, artıq erməni separatçıları Laçın dəhlizində çıxan görünməyən tüstünü görməyə, hətta o tüstünün qoxusunu da duymağa başlayıblar. Xankəndidə bunu anlayırlar və önləyici addım kimi RSK-nı köməyə çağırırlar.

## Laçın dəhlizinə daha bir alternativ var - Ağdam yolu!

İndi isə sözügedən məsələyə ayrı-ayrılıqda şərh verək. Yaxşı olardı ki, Babayan "genosid", "qətliam" tipli fikirlərini özünəbənzər publika üçün saxlasın. Belə ki, Qarabağ hadisələrini bilən, öyrənən və ədalətli nəticə çıxarmağı bacaran istənilən şəxs yaxşı bilir ki, Xocalıda, Ballıqayada, Malıbəylidə soyqırımlarını kimlər törədiblər. Həm də bu münaqişəni izləyənlər onu da yaxşı bilirlər ki, kimlər dəqiq vuran silahların alınması üçün milyardlarla dollarlar xərcləyib və sonradan həmin silahları Azərbaycanın dinc şəhərlərinə doğru tuşlayıb, minlərlə mülki vətəndaşların həyatlarına son qoyub. Və bilənlər onu da yaxşı bilirlər ki, erməni generalları bu silahlarını məhz və məhz (!!! R.R.) Xankəndinin, Ağdərənin yaşayış massivlərində yerləşdiriblər. O cümlədən, kifayət qədər aydındır ki, Azərbaycan heç vaxt Xankəndiyə aparılan humanitar yük tranzitlərinə manеələr yaratmayacaq. Hansı ki, 1988-1989-cu illərdə Ermənistan Azərbaycandan fərqli olaraq Naxçıvana qarşı nəqliyyat blokadasını tətbiq edirdi!

Bu da son deyil. Əgər Babayan Laçın dəhlizini Qarabağla Ermənistanı bağlayan yeganə yol kimi gördüyünü deyirsə kökündən yanılır. Çünki daha bir yol mövcuddur - Ağdam yolu. Məhz Azərbaycan vətəndaşlığını qəbul edəcək Qarabağ erməniləri bu yoldan istifadə etməklə özlərinə məxsus humanitar yüklərini Ermənistandan Qarabağa gətirə bilərlər və onlara kimsə maneə də yaratmayacaq. Yox əgər həmin yoldan minaların, silahların, hərbi texnikaların, VOMA, daşnak və s. terrorçuların, fransız diplomatlarının, qalmaqallı rusiyalı oliqarxların, öyrədilmiş jurnalistlərin, Qərbin xüsusi xidmətlərinə bağlı casusların keçmələrinə cəhd ediləcəksə, əlbəttə ki, Azərbaycan buna imkan verməyəcək. Bax, bu reallığın öz hədəfinə doğru çatması David Babayanın timsalındakı Araik Arutyunyan, Vardanyan tipli separatçı-quldur rejimini qorxutmağa başladıb.

Xatırlatmaq yerinə düşərdi ki, bir müddət əvvəl də Xankəndidə RSK-nın sayının artırılması ilə bağlı "təşəbbüs" irəli sürülmüşdü. Amma bu "təşəbbüs" də həmin vaxt işə yaramadı. Çünki ortada üçtərəfli bəyanat var və orada RSK-nın sayı dəqiq verilib. Yox, əgər say artımı məsələsi qaldırılarsa onda da Bakı ilə Moskvanın ümumi razılığı əldə edilməlidir və İrəvanın, a da Qarabağ "separatçılarının" istəkləri burada heç bir rol oynamır və oynamayacaq da.

İndi isə Xankəndidə RSK-nın "texniki təchizatının dəyişdirilməsi" fonunda siçan-pişik oyunu oynanılmağa başlanıb. Maraqlıdır, "texniki təchizatın dəyişdirilməsi" deyərkən nə nəzərdə tutulur? Bəlkə RSK-nın postlarına gecə görüntülü cihazlar, binokllar və verilməlidir? Xeyr, bu da alınmayacaq və Bakı buna icazə verməyəcək!

## RSK-dan yapışan erməni separatçıları Fərrux əməliyyatını, Azərbaycan Ordusunun Laçın şəhərinə, Zabux və Sus kəndlərinə daxil olmasını da unutmamalıdırlar

Babayan sərsəm düşüncələrini bölüşdüyü zaman bir həqiqəti də yadından çıxarmamalıdır - Fərrux əməliyyatını! Yəni fakt budur ki, RSK-nın Qarabağda olması heç də belə deməyə əsas yaratmır ki, onların mövcudluqları olan yerlərdə Azərbaycanın zərbə PUA-ları separatçıların başlarının üzərini qara buludlar kimi almayacaq.

Yaxud, separatçı "başbilənləri" 2022-ci ilin avqustunda Laçın şəhərinin və Zabux, Sus kəndlərinin köhnə Laçın dəhlizi statusundan çıxaraq Azərbaycan Ordusunun nəzarəti altına keçməsini, RSK-nın isə bu əraziləri tərk etməsini də unutmamalıdırlar. Məhz həmin ərəfələrdə də Qarabağa qanunsuz olaraq köçürülmüş livanlı terrorçu, həmin ərazilərin "meri" kimi təqdim edilən Çavuşyan yekə-yekə danışırdı ki, Azərbaycan əsgəri oraya vertikal şəkildə daxil olsa horizontal şəkildə də çıxmalı olacaq və s... Amma nə baş verdi? Çavuşyan bir neçə gündən sonra İrəvanda keçirilən etiraz mitinqlərində "məzlum və əzabkeş erməni" olaraq boğazını yırtmağa başladı.

## Nə qədər ki, gec deyil - Qarabağdan Ermənistana doğru aradan çıxmaq üçün yalnız Azərbaycan postlarından keçməli olacaqlar...

Ola bilər ki, Xankəndidəki separatçı rejim mənsubları RSK-nı 30 il əvvəl Xocalı soyqırımının törədilməsində iştirak etmiş məşum 366-cı alay qismində görürlər, ya da görməyə cəhd edirlər, amma o dövrlərdə də artıq çox geridə qalıb. Bəli, ola bilər ki, RSK özünün məntiqsiz, bəlkə də təxribatçılıq məqsədi ilə yaydığı relizlərində istədiyi uğursuz ifadələrini qeyd edə bilər. Amma bundan da o tərəfə keçə bilməz, çünki mövcud reallıq tamamilə ayrı cürdür. Hətta iki il əvvəlkindən də qat-qat fərqlidir və bu fərqlilikdə Azərbaycanın artan gücü də ortadadır. Ona görə də separatçılar isterikalara qapılaraq özlərindən "Vaşinqton", "Moskva", "Paris" qurmaqdansa Laşın dəhlizində tətbiq ediləcək yeni qaydalara riayət, itaət, boyun əymək barədə düşünsünlər. Çünki qısa müddətdən sonra onlar üçün yeni problemlər yaranacaq - onlar Qarabağdan Ermənistana doğru aradan çıxmaq üçün yalnız Azərbaycan postlarından keçməli olacaqlar...

***Rövşən RƏSULOV***

# QİÇS:
# dünyada və Azərbaycanda vəziyyət

**Qazanılmış İmmun Çatışmazlığı Sindromu bütün dünyada çox geniş yayılmaqda olan, müasir təbabət elminin və səhiyyənin, o cümlədən də bütün bəşəriyyətin və dünya birliyinin ən qlobal problemlərindən hesab edilən bir patologiyadır. Virus mənşəli infeksion xəstəlik olan QİÇS immun sistemin tam depressiyasına, infeksiyalara qarşı orqanizmin ümumi müqavimətinin kəskin zəifləməsinə, onkoloji xəstəliklərin inkişafına və s. bu kimi ağır vəziyyətlərə gətirib çıxarır ki, bütün bunlar da ölümlə nəticələnir.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" çərçivəsində hazırlanıb.

### Yoluxanların sayı sürətlə artır

Xəstəliyin adı əslində HİV- Human İmmunodeficiency Virus, yəni İİV- İnsan İmmun Çatışmazlığı Virusudur. QİÇS isə bu infeskiyanın sonunda, onun ağırlaşması və son nəticəsi kimi meydana çıxan bir əlamətdir. Lakin bu infeksiyanın ilk dəfə öyrənildiyi vaxtdan etibarən onun adına QİÇS deyildiyi üçün bu günə qədər də bu xəstəliyin adlandırılmasında bu termindən istifadə edilir.

Xəstəlik 1981-ci ildə kaliforniyalı həkim Maykl Hotlib tərəfindən ABŞ-da homoseksuallar arasında aşkar olunub. Rəsmi statistikalaya görə, İİV-lə yaşayan 38,4 milyon insan mövcuddur. BMT-nin müvafiq məruzəsində bildirilir ki, dünya üzrə təxminən 40 milyondan artıq insan bu xəstəlikdən ölüb, bir o qədər də insan dəhşətli xəstəliyin virusunu daşıyır. Dünyada 84 milyona yaxın insanın İİV-ə yoluxduğu ehtimal edilir. Hər il QİÇS-dən 2 milyondan artıq insan ölür.

QİÇS hazırda dünyanın bütün ölkələrində var və sürətlə də artmaqda davam edir. Belə hesab edilir ki, hər il yoluxmuş və xəstə şəxslərin sayı 2 dəfə artır. Xəstəlik XX əsrin 50-ci illərində Mərkəzi Afrikada başlayıb. Afrikadan isə xəstəlik Haiti adalarına, sonra isə Amerika və Qərbi Avropaya yayılıb.

### QİÇS-ə necə yoluxdururlar?

1. Cinsi əlaqə zamanı qoruyuculardan istifadə etmədikdə,
2. Narkomanlar arasında eyni şiprisdən istifadə zamanı
3. Tatuaj zamanı eyni iynə ilə bir neçə nəfər tatu olunduqda
4. QİÇS-li ana uşağını əmizdirdikdə
5. Qan köçürmə zamanı

Bəs İİV hansı yollarla ötürülmür?

* Nəfəslə, öskürmək və asqırmaqla;
* Əl verib görüşmək, qucaqlaşmaq və öpüşməklə;
* İctimai nəqliyyatdan istifadə zamanı;
* Ümumi hovuz, hamam və ayaqyolundan istifadə zamanı;
* Kollektiv idmanla məşğul olduqda;
* Ev və ofis əşyalarından istifadə zamanı;
* Qida və su vasitəsilə;
* Həşəratların sancması ilə.

### Azərbaycanda vəziyyət yaxşıdır

Səhiyyə Nazirliyindən verilən məlumata görə, Azərbaycanda 8 min nəfərə yaxın İİV-ə yoluxmuş xəstə qeydiyyatdadır. Onların 70% kişi, 30,%-i qadındır. 2019-cu ildə Azərbaycanda insan immunçatışmazlığı virusuna (İİV) yeni yoluxmuş 642 nəfər, 2021-ci ildə isə 505 nəfər qeydə alınıb.



"2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı" çərçivəsində qeydiyyatda olan bütün xəstələr müvafiq dərman preparatları ilə təmin olunub, əhali arasında bu xəstəliyin profilaktikasına dair geniş maarifləndirmə işi aparılıb. Görülən tədbirlər nəticəsində ölkəmiz insan immunçatışmazlığı virusuna yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında qalmaqdadır. Belə ki, 2020-ci ilin göstəricilərinə əsasən, hər 100 min nəfər əhaliyə 5.02 İİV daşıyıcısı var (2019-cu ildə bu göstərici 6.43 olub).

Azərbaycan vətəndaşları arasında 2020-ci il ərzində aşkar olunan İİV-ə yoluxma hallarının 13,4%-i, 1987 - 01.04.2020-ci illər ərzində isə aşkar olunan halların 40,5%-i inyeksion narkotik istifadəsi nəticəsində baş verib.

Azərbaycan hazırda immun çatışmazlığı vurusuna yoluxma səviyyəsi aşağı olan ölkələr sırasındadır. Ölkəmizdə İİV-ə yoluxmuş hamilə qadınların 96 faizi antiretrovirus müalicəsinə cəlb olunub. Nəticədə dünya statistikasında virusun anadan uşağa ötürülməsi 5-11 faizdirsə, Azərbaycanda bu göstərici 1,8 faizdir.




Yoluxma halları müxtəlifdir

Ümumiyyətlə, İİV-ə yoluxmaların təxminən 63%-i inyeksion narkotik istifadəsi nəticəsində, 27%-i heteroseksual və homoseksual kontakt nəticəsində baş verir. Bundan başqa, İİV-ə yoluxmuş donorun qanının və orqanlarının transplantasiyası zamanı; İİV-lə çirklənmiş tibbi ləvazimatdan istifadə etməklə, İİV-lə çirklənmiş gigiyenik, kosmetoloji, bərbər və digər məişət ləvazimatlarının istifadəsi nəticəsində; Perinatal yoluxma - İİV-ə yoluxmuş anadan uşağa hamiləlik dövründə, doğuş zamanı və ana südü ilə qidalanma nəticəsində baş verə bilər.

Kəskin faza birincili HİV və ya kəskin retroviral sindrom adlandırılır. Yoluxmadan sonra 2-6 həftə ərzində qızdırma, gecə tərləmələri, şişmiş limfa düyünləri, ürək bulanma kimi qripəbənzər simptomlar üzə çıxa bilər. Kəskin İİV-infeksiyasında simptomların rastgəlmə tezliyi belədir;

-80% qızdırma
-78% yorğunluq
-54% baş ağrısı
-54% iştahsızlıq
-54% artralgiya (oynaq ağrısı)
-51% dəri ekzenteması
-51% gecə tərləməsi
-49% mialgiya (əzələ ağrısı)
-49% ürək bulanma
-46% diareya
-46% qızdırma və ekzentema kombinasiya olaraq
-44% faringit
-37% ağız xorası
-34% boyun tutulması (şişmiş limfa düyünləri səbəbindən ola bilər)
-32% çəki itkisi
24% fotofobiya (işıqdan qorxma)

Bəzi xəstələr yuxarıdakı simptomların fərqinə varmaya bilər və ya bu simptomlar mövcud olmaya bilər. Simptomlar qeyri-spesifikdir. Bu səbəbdən infeksiya üçün risk faktoru göstərən və yuxarıdakı simptomlara sahib şəxslərdə İİV araşdırılmalıdır. Yalnız kəskin faza simptomlarının vasitəsilə İİV-pozitiv diaqnozu qoyula bilməz, İİV-testləri vasitəsilə müəyyənləşdirilməlidir.

İİV-infeksiyasına yoluxma əlamətləri ilk mərhələdə adi soyuqlama, qısa müddətli zökəm, bədən temperaturunun bir neçə gün subfebril olması ilə təzahür olunur və tamamilə keçir.

İlkin klinik əlamətlərə limfa düyünlərinin böyüməsini (limfadenopatiya) spesifik simptom kimi aid etmək olar. Düyünlər ağrısız, elastik, hərəkətli və üzərində dəri örtüyü dəyişməmiş qalır. Qeyd edilən simptom yoluxmaya şübhə yaradaraq laborator müayinəyə əsas verir.

İİV infeksiyasına yoluxan şəxslər bütün həyatları boyu daimi tibbi yardıma ehtiyacları var. İİV/QİÇS zamanı müalicə və yardımın əsas komponentini antiretrovirus terapiyası (ART) təşkil edir. Bu zaman xəstələrin müalicəyə sadiqlik göstərməsi çox vacibdir. Düzgün seçilmiş ART İİV-ə yoluxan şəxslərin həyat keyfiyyətini və müddətini artırır, opportunist infeksiyaların qarşısının alınması üçün immunitetin kəmiyyət və keyfiyyətcə bərpasına dəstək olur. Aparılan müalicə virus yükünü maksimal dərəcədə aşağı salaraq infeksiyanın digər insanlara ötürülmə riskini azaldır və xəstəliyin proqressivləşməsini maksimum uzun müddətə ləngidilir. Azərbaycanda İİV-li xəstələrin müayinə və müalicəsi bütün mərhələlərdə pulsuz və könüllüdür.




ARAŞDIRMA

***Lalə Mehralı***

# Sağlam və patoloji QISQANCLIQ.

## Psixoloqun tövsiyələri



**Yəqin ki, hər birimiz həyatımızda bir dəfə də olsa bu əzablı qısqanclıq hissini yaşamışıq. Qısqanclıq müxtəlif olur və fərqli sahələrdə yaranır: sevgidə, dostluqda, övlad-valideyn münasibətlərində. Qısqanclığa ən çox ailə münasibətlərində rast gəlmək olar. Bu hiss yavaş-yavaş təsir edən zəhər kimi vaxt keçdikcə ailəni tamamilə dağıltmaq iqtidarındadı. Ailə münasibətləri psixologiyasına əsasən, qısqanclıq kişi və qadın arasında olan münasibətlərdə yer alan şübhə hissidir. Psixologiya və Konsultasiya Mərkəzinin psixoloqu Aygün Ağabalayeva bu barədə maraqlı fikirlər açıqlayıb. Qısqanclığı bir neçə tipə ayırmaq olar.**

1. Sevdiyi insana qarşı mənimsəmə hissi. Belə hallarda təbii ki, qarşı tərəf xeyli əziyyət çəkir. Bu tip daha inadkar, üstün olmağa meyil edirlər. Onlar insana nə hörmət qoymağı, nə bağışlamağı bacarırlar.

2. Özgüvən əksikliyi nəticəsində əmələ gələn qısqanclıq. Bu tip qısqanclıq özünə əmin olmayan, həyəcanlı olan insanlarda yaranır. Onlarda başqaları ilə müqayisədə ikinci dərəcəli olmaq qorxusu. Bu tip qısqanclıq qarşı tərəfdən çox, qısqanc olana əziyyət verir.

3. Qısqanc insanın özü xəyanət edəndə. Bu halda əks tərəf əziyyət çəkir. Qısqanclığın real yada ki, uydurulmuş əsası həmişə var. Real deyəndə, yəni həyat yoldaşının fərqli, şübhə doğuran davranışı. Uydurulmuş halda qısqanclığın qaynağı qorxudur, inamsızlıqdı. Qısqanclıq insanın cinsindən, xarakterindən, insanın şəxsi əqidəsindən asılı olaraq müxtəlif olur.

Qısqanclıq üzücü bir hissdir, lakin bu hissin müsbət tərəfi də var. Qısqanclıq qədərində olanda bu sağlam qısqanclıqdı, çünki sevgini daha da gücləndirir. Amma qısqanclıq qeyri-sağlam şəkildə olanda təbii ki, mənfi emosiyalara səbəb olur. İlk öncə sevdiyi insana qarşı yaranan inamsızlıq, güvənsizlik. Sonra qəzəb, əsəbililik - hansıların ki, nə üzə çıxaranda, nə daxildə boğanda müsbət nəticə vermir. Qorxular ortaya çıxır: atılma, tənha qalma qorxusu. "Hamı biləndə mənim haqqımda nə danışacaqlar" bu kimi fikirlər. Qısqanclıq psixosomatik xəstəliklərlə də bağlı tərəfləri var. Emosional stress qadınlarda birbaşa hormonal sistemə təsir edir. Kişilərdə isə xroniki yorğunluq sindromunun yaranmasına səbəb olur.

Qeyd etdiyim kimi qısqanclığın ailədaxili münasibətlərə mənfi təsiri çoxdu. Ən kədərlisi odur ki, bu qısqanclıq "səhnələri" övladların göz önündə baş verir. Hər bir uşaq üçün ilk gündən valideynləri yeganə sevimli modeldir. Kiçik yaşlarında hələ tam olanları kritik analiz edə bilmirlər, lakin bütün gördükləri şüuraltında yer alır. Və təbii ki illər keçdikcə müəyyən yaşa çatanda, münasibət quranda övladınıza öz mənfi təsirini göstərəcək.

Kişi və qadın qısqanclığı fərqli olur. Kişilər həyat yoldaşını özündən diqqətini yayındıran hər kəsə qısqanır, hətta övladlarına, nəvələrinə. Təbii ki, başqa kişilərə də. Kişilər öz rəqibi ilə özlərini müqayisə etmirlər. Onlar üçün əsas qısqanclığın fakt olaraq özüdür.

Qadınlar isə əksinə rəqibi ilə özlərini müqayisə edirlər. Əgər kişinin xəyanətində kişi həyat yoldaşın ittiham edirsə, qadında özünügünahlandırma hissi ilə də rast gəlirik. Hətta bəzi xanımlarımız rəqiblərinə oxşamağa can atırlar. Hesab edirlər ki, qadınlar kişilərdən daha qısqancdı, çünki bu mövzuda tez-tez dava salırlar. Amma reallıqda başqa cürdür. Kişilərdən fərqli olaraq qadınlarımız xəyanətlə rastlaşanda çox vaxt bağışlayırlar əsas da övladlarına görə.

"Bəs qısqanclığı necə aradan qaldıraq?" sualı ortaya çıxır. Hər bir insan özünə dəyər verməyi , özünüqiymətləndirməyi bacarmalıdı. Özünüzə vaxt ayırın. Fikrinizi daha əhəmiyyətli işlərə ayırın. Baş verənlərdən daha səmərəli nəticə çıxarın. Həyat tərzini dəyişməyə cəhd göstərin. Qısqanclığı anlamaq üçün onun səbəbini bilmək gərək. Səbəbi isə özünüqiymətlədirmənin aşağı olmasıdı. Həyatınızı qısqanclıq hissi ilə zəhərləməyin. Sadəcə özünüzə dəyər verin və həyatda birlikdə olduğunuz hər dəqiqənizdən zövq almağa çalışın!

# *"Komanda mənim səhvimdən sonra daha güclü oynadı"*




Argentina millisinin kapitanı Lionel Messi DÇ-2022-nin qrup mərhələsinin 3-cü turunda Polşaya 2:0 hesabı ilə qalib gəldikləri oyunu şərh edib. Qol.az xəbər verir ki, 35 yaşlı hücumçu 39-cu dəqiqədə penaltini düzgün yerinə yetirə bilmədiyi üçün əsəbiləşdiyini deyib: "Amma komanda mənim səhvimdən sonra daha güclü oynadı. Hesab açılan kimi oyunun dəyişəcəyini bilirdik.

Avstraliya ilə matç çətin olacaq. İstənilən komanda hər kəsə qalib gələ bilər, şanslar bərabərdir. Oyuna mümkün qədər yaxşı hazırlaşmalıyıq. Sakit qalmaq və oyundan-oyuna düşünmək lazımdır. Dünya çempionatında yeni mərhələ start götürmək üzrədir. İnanıram ki, qələbələrə davam edəcəyik".

Qeyd edək ki, Argentina DÇ-2022-nin 1/8 finalında dekabrın 3-ü Avstraliya ilə qarşılaşacaq. Görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# "Vətəndaşlar kreditmi ödəyəcək, yoxsa cərimə"?

*İqtisadçı ekspert şərh etdi*

**"Vətəndaşlara kredit verilərkən onlara verilən cərimələrin hesablanması yenə də kreditin qaytarılma risklərinin hesablanması baxımından vacibdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eldəniz Əmirov deyib.**

İqtisadçı ekspertin sözlərinə görə, həm insanın hansısa bir banka kredit borcu və ya hansısa öhdəliyi olar, bir də var ki, hansısa cəriməsi var.



Cərimə yuxarı məbləğdə olanda bu, birinci növbədə, kredit ödəniş risklərini artırır. Digər bir tərəfdən isə burada təkcə cərimə məbləğləri deyil, eyni zamanda kiçik məbləğlər də olsa, gecikmələr belə nəzərə alınacaq. Çünki cərimə məbləğlərinin ödənişlərində olunan gecikmələr bir növ vətəndaşın məsuliyyətinin göstəricisidir. Və hesab edirəm ki, bu qərar doğru yanaşmadır. Məsələn, 20 manatlıq cəriməsini vətəndaş vaxtında ödəmirsə, öz kredit borcunu da vaxtında ödəməyəcək. Bəzi vətəndaşlar buna məsuliyyətsiz yanaşacaqlar. Yəni burada pulunun və ya maddi durumunun olmasından, yaxud da kreditin geri dönüş imkanlarından asılı olmayaraq vətəndaş məsuliyyəti məsələsidir".

***Ziya Hikmət oğlu***

# Açıqlandı: Azərbaycana turist axını 2 dəfədən çox artıb



***Bu ilin yanvar-oktyabr aylarında Azərbaycana 176 ölkədən 1 323,2 min nəfər və yaxud ötən ilin eyni dövrünə nisbətən 2,2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. SİA xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.***

Məlumata görə, gələnlərin 27,4 %-i Rusiya, 19,4 %-i Türkiyə, 10,8 %-i İran, 6,8 %-i Səudiyyə Ərəbistanı, 4,8 %-i Gürcüstan, 3,4 %-i Hindistan, 3,3 %-i Pakistan, 2,2 %-i Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), 1,9 %-i Qazaxıstan, 1,8 %-i Ukrayna, 1,7 %-i İsrail, 1,6 %-i Özbəkistan, 1,5 %-i Küveyt, 1,3 %-i Oman, 1,1 %-i Belarus, 11%-i digər ölkələrin vətəndaşları olub. Gələnlərin 74,6 %-ni kişilər, 25,4 %-ni qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Küveytdən gələnlərin sayı 105,4 dəfə, Omandan gələnlərin sayı 70,8 dəfə, Səudiyyə Ərəbistanından gələnlərin sayı 35,6 dəfə, Pakistandan gələnlərin sayı 22,3 dəfə, Hindistandan gələnlərin sayı 15,4 dəfə, Özbəkistandan gələnlərin sayı 6,5 dəfə, Qazaxıstandan gələnlərin sayı 5,3 dəfə, İsraildən gələnlərin sayı 4,4 dəfə, BƏƏ-dən gələnlərin sayı 4,2 dəfə, ABŞ-dan gələnlərin sayı 3,2 dəfə, Almaniyadan gələnlərin sayı 2,7 dəfə, Fransadan gələnlərin sayı 2,4 dəfə, Böyük Britaniyadan gələnlərin sayı 1,9 dəfə, Rusiyadan gələnlərin sayı 1,8 dəfə, Ukraynadan gələnlərin sayı 1,7 dəfə, Türkiyədən gələnlərin sayı 1,6 dəfə, İrandan gələnlərin sayı 44,1 %, Gürcüstandan gələnlərin sayı isə 28,3 % artıb.

Son 1 ildə körfəz ölkələrindən gələnlərin sayı 2,7 dəfə artaraq 307,5 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,3 dəfə artaraq 62,6 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 2 dəfə artaraq 462,9 min nəfər olub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**